# ULU XUDAFƏRİN

**Araz üstdə Xudafərin körpüsü**
**Qardaşlığın olub təməl hörgüsü**
*Şakir ALBALIYEV*





*Qəzet 2025-ci ildən çıxır* **№ 03-04 (03-04) 5 noyabr 2025-ci il**


# Prezident İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edib.**

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına Horovlu kəndində görülən işlər barədə məlumat verdi.

Xatırladaq ki, Horovlu kəndi 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmişdi. 2020-ci il oktyabrın 4-də Azərbaycan Ordusu kəndi işğaldan azad edib.

Bu kəndin təməlini Prezident İlham Əliyev 2023-cü ilin mayında qoyub. Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva ötən ilin oktyabrında Horovluda fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar.

Ümumi sahəsi 248 hektar olan Horovlu kəndində 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi – su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Evlərin üzərində Qarabağ xalçalarının ornamentləri həkk edilib. Kənddaxili yollara asfalt döşənib.

Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi evin, 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib.

Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib. Horovlunun su təminatının bir hissəsi məhz bu kəhrizlər hesabına təmin olunacaq.

Qeyd edək ki, burada inşa olunmuş körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Bağçada yeməkxana, oyun və musiqi otaqları balacaların ixtiyarına veriləcək. Bundan başqa, binada inzibati, kompüter və metodika otaqları yaradılıb. Bağçanın ərazisində uşaqların asudə vaxtlarını maraqlı keçirmələri üçün də şərait yaradılıb.



Horovluda müasir tam orta məktəb binası da tikilib. Məktəb binasında tədrisin yüksək səviyyədə aparılması üçün geniş imkanlar mövcuddur. Təhsil ocağının sinif otaqları lazımi dərs vəsaiti və avadanlıqla təchiz olunub. Burada 26 sinif otağı, kimya, fizika, biologiya və informatika, musiqi, rəsm, hərbi hazırlıq otaqları, 4 laboratoriya, kitabxana şagirdlərin ixtiyarına veriləcək. Binada 180 yerlik akt zalı, qapalı idman zalı və yeməkxana da yaradılıb. Məktəbin ərazisində açıq idman meydançası da mövcuddur.

Horovlu kəndində 4,4 hektar ərazidə park kompleksi də inşa olunub. Burada uşaqlar üçün oyun zonası, idman sahəsi, basketbol meydançası, masaüstü oyunlar üçün zona, söhbətgahlar yaradılıb. Eyni zamanda, Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib. Torpaq işləri zamanı aşkarlanmış təbii qayalar parka daşınaraq landşaft dizaynının bir hissəsi kimi istifadə olunub. Ərazidə "Əsgər" kəhrizinin su anbarı əsaslı təmir edilib, dekorativ landşaft yaradılıb. Həmçinin parkın ərazisində işğal zamanı dağıdılmış 4 bina tarixi yaddaşın qorunması, həmin dövrün izlərini və reallıqlarını gələcək nəsillərə çatdırmaq üçün əyani sübut kimi saxlanılıb.

Bundan başqa, kənddə ikimərtəbəli inzibati bina inşa edilib. Binada operativ idarəetmənin və qərarların səmərəli qəbulunun təmin edilməsi məqsədilə müasir situasiya mərkəzi yaradılıb. Mərkəzdə kəndin idarəetməsində Coğrafi İnformasiya Sisteminin (CİS) tətbiqi də nəzərdə tutulur. Kəndin Baş planının CİS platformasına inteqrasiya edilməsi yaşayış məntəqəsinin səmərəli planlaşdırılmasına və idarə edilməsinə imkan verəcək. Bütün torpaq sahələri, tikililər, yollar, su, enerji, qaz, rabitə xətləri bu platformada koordinatlarla yerləşdirilib. Platforma dizayn və tikinti proseslərini izləməyə, dəyişiklikləri xəritəyə tətbiq etməyə, müxtəlif situasiyalara uyğun qərar qəbul etməyə, üçölçülü (3D) bina modelləri, real vaxtda kamera məlumatlarına çıxış imkanları olduğundan mövcud vəziyyəti həm xəritədə, həm də sistem üzərində birbaşa müşahidə etməyə imkan yaradır. Dövlət və özəl qurumlarla inteqrasiya, məlumat mübadiləsi, hesabatlılıq və vizual təqdimatlar baxımından platformanın istifadəsi müasir idarəetmədə innovativ həll hesab olunur.

Cəbrayıl rayonunun Horovlu kəndində yaradılmış şəraitlə tanış olan dövlətimizin başçısı kəndə köçən sakinlərlə görüşdü, onlara mənzillərin açarlarını təqdim etdi.

## Cəbrayıl şəhərində ikinci və üçüncü yaşayış komplekslərinin təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl şəhərində ikinci və üçüncü yaşayış komplekslərinin təməlini qoyub.**

Ikinci yaşayış kompleksi 5,28 hektar ərazidə salınacaq. Layihə çərçivəsində 5 və 6 mərtəbəli 23 bina inşa ediləcək. Binalarda bir, iki, üç, dörd və beş otaqdan ibarət ümumilikdə 615 mənzil olacaq. Kompleksdə sakinlərin rahat yaşayışı üçün bütün zəruri şərait yaradılacaq.

Dövlətimizin başçısı daha sonra şəhərdə inşa ediləcək üçüncü yaşayış kompleksinin təməlini qoyub. Bu kompleksin də ümumi sahəsi 5 hektardan artıqdır. Burada 5, 6 və 7 mərtəbəli 25 binanın tikintisi planlaşdırılır. Layihəyə əsasən binalarda bir, iki, üç, dörd və beşotaqlı olmaqla 746 mənzilin inşası nəzərdə tutulur.

Hər iki kompleks müasir standartlara uyğun şəkildə tikiləcək, zəruri sosial infrastrukturla təchiz ediləcək və Cəbrayıl şəhərinin bərpası istiqamətində atılan növbəti mühüm addım olacaq.

## Cəbrayıl rayonunda "Şəfəq" Günəş Elektrik Stansiyasına gedən avtomobil yolunun açılışı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Hacıqabul-Bəhrəmtəpə-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 197-ci kilometrindən Cəbrayıl rayonu ərazisində inşa olunan "Şəfəq" Günəş Elektrik Stansiyasına gedən avtomobil yolunun açılışında iştirak edib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, IV texniki dərəcəyə uyğun inşa edilən yolun ümumi uzunluğu 11,5 kilometrdir. İki hərəkət zolağından ibarət yolun eni 6 metrdir. Bu yolun inşası ötən ilin dekabrında Azərbaycan Prezidentinin imzaladığı Sərəncama əsasən həyata keçirilib.

Qeyd edək ki, yeni yolun istifadəyə verilməsi bu istiqamətdə nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinə, əhalinin rahat gediş-gəlişinin təmin edilməsinə öz töhfəsini verəcək.

## Şahvəlli kəndində "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarının təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Şahvəlli kəndində hər birinin gücü 50 meqavat olan "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarının təməlini qoyub.**

Energetika naziri Pərviz Şahbazov dövlətimizin başçısına 50 meqavat gücündə "Şəms" Günəş Elektrik Stansiyası barədə məlumat verdi.

Bildirildi ki, bu layihə ölkəmizin yaşıl enerji strategiyasının mühüm tərkib hissəsidir və Cəbrayıl rayonunun enerji xəritəsində yeni mərhələnin başlanğıcını qoyur.

Qeyd edək ki, 2024-cü ilin mart ayında Energetika Nazirliyi ilə "Nobel Energy" şirkəti arasında 100 MVt gücündə Günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin istehsalı, satışı və istehlakı sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Ardınca bu ilin aprelində Azərbaycan Respublikası Hökuməti "Enerso Cəbrayıl" MMC ilə 50 MVt gücündə "Üfüq" Günəş Elektrik Stansiyası, "Clean Energy Jabrayil" MMC ilə isə "Şəms" Günəş Elektrik Stansiyası layihələri üzrə investisiya müqavilələri bağlayıb.

Ötən il Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 229 hektar torpaq sahəsi bərpaolunan enerji mənbələrinin inkişafı üçün ayrılıb. Bu çərçivədə "Clean Energy Jabrayil" MMC üçün 135 hektardan çox, "Enerso Cəbrayıl" MMC üçün isə 93 hektardan çox ərazi müəyyən edilib.

Prezident İlham Əliyev "Şəms" Günəş Elektrik Stansiyasının təməlini qoydu, daha sonra "Üfüq" Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak etdi.

Məlumat verildi ki, "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarında ildə ümumilikdə 206 milyon kilovat-saat elektrik enerjisinin istehsalı planlaşdırılır. Bunun nəticəsində hər il təxminən 44 milyon kubmetr təbii qaza qənaət ediləcəyi, atmosferə atılan zərərli emissiyaların isə 96 min ton azalacağı gözlənilir.

Stansiyalarda istehsal ediləcək elektrik enerjisinin 75 milyon kilovat-saatı "AzərEnerji" ASC-yə, 131 milyon kilovat-saatı isə "elektrik enerjisinin virtual ötürülməsi" prinsipi əsasında iri istehlakçılarla birbaşa bağlanan alqı-satqı müqavilələri üzrə satılacaq. "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarının 2027-ci ildə istismara verilməsi planlaşdırılır.

Bu layihələrin icrası Şərqi Zəngəzurun yaşıl enerji mərkəzinə çevrilməsində Cəbrayıl rayonunun rolunu daha da gücləndirəcək.

# Horovlu kəndinin sakinlərinə mənzillərin açarları təqdim edilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşüb.**

Dövlətimizin başçısı kəndə köçən sakinlərə mənzillərin açarlarını təqdim edib.

**Sakinləri salamlayan Prezident İlham Əliyev dedi:** Salam, xoş gəlmisiniz.

**Qadın sakin:** Salam, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Salaməleyküm.

**Kişi sakin:** Sizinlə fəxr edirik, cənab Prezident.

**Prezident İlham Əliyev:** Salam, salaməleyküm.

**Qadın sakin:** Fəxr edirik, həmişə fəxrimizsən.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Dövlətimizin başından əskik olmayasınız.

**Prezident İlham Əliyev:** Çox sağ olun, xoş gördük. Salam, qızım. Xoş gəlmisiniz doğma vətəninizə.

**Qadın sakin:** Siz də xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Salaməleyküm. Əziz horovlulular, sizi ürəkdən salamlayıram. Bu gün Horovlu kəndinin tarixində çox əlamətdar, unudulmaz, tarixi bir gündür. Kəndin sakinləri öz doğma torpağına qayıdırlar. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, burada xoşbəxt yaşayın.

**Sakinlər:** Sağ olun, çox sağ olun.

**Prezident İlham Əliyev:** Dövlət sizin üçün bütün şəraiti yaradıb. İndi Horovlu kəndi göz oxşayır. Çox gözəl binalar, məktəb, uşaq bağçası, tibb məntəqəsi və iş yerləri yaradılır. Evlərin sayı 334-dür və burada birinci mərhələdə 1400 insan məskunlaşacaq. Məndə olan məlumata görə, işğala qədər Horovlu kəndində 1500 adam yaşayırdı. İndi təbii ki, ailələr böyüyüb və horovluluların sayı 2 mindən bir qədər çoxdur. İkinci mərhələdə digər vətəndaşlar üçün də evlər tikiləcək. Ancaq hesab edirəm ki, birinci mərhələdə görülən bu işlər təqdirəlayiqdir. Burada rahat, xoşbəxt həyat sürmək üçün bütün imkanlar var.

Horovlu kəndi Vətən müharibəsinin ilk həftəsində erməni işğalından azad edilmişdir və əslində, bizim Zəfər yürüşümüz bu bölgələrdən başlamışdır. Cəbrayıl, Füzuli istiqamətində irəli gedən bizim əsgər və zabitlərimiz düşmənin bir neçə müdafiə xəttini yara bilmiş, beləliklə, gələcək Zəfər yürüşümüzü şərtləndirmişlər. Allah şəhidlərimizə rəhmət eləsin. Onların əziz xatirəsi daim bizim qəlbimizdə yaşayır, yaşayacaq.

Düz beş il bundan əvvəl bu ərazi işğaldan azad edildi və bu şanlı tarix hər zaman bizim qəlbimizdə yaşayacaq. Bir neçə gündən sonra biz tarixi Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. 8 Noyabr - Zəfər Günü bizim tariximizdə olan ən parlaq səhifədir. Beş il bundan əvvəl tarixi Zəfərimiz bütün dünyaya səs salıb.

Azərbaycan xalqı mərd xalqdır, qəhrəman xalqdır, iradəli xalqdır, öz torpağına bağlı olan xalqdır. Biz sübut etdik ki, işğalla barışmaq fikrində deyildik, halbuki bunu dəfələrlə bəyan etmişdik. Döyüş meydanında 300-dən çox şəhər, qəsəbə, kənd azad edildi və Ermənistan kapitulyasiya aktına imza ataraq təslim olmağa məcbur oldu.

O gündən bu yana quruculuq işləri ilə məşğuluq. Bu gün bütün Qarabağ və Şərqi Zəngəzur tikinti meydançasıdır. Artıq 50 mindən çox insan Qarabağda, Şərqi Zəngəzurda yaşayır, çalışır, təhsil alır. Onlardan təqribən 20 mini keçmiş köçkünlərdir ki, öz vətəninə, doğma torpağına qayıdıblar. Qalanlar isə müxtəlif işlərdə işləyən vətəndaşlardır.

"Böyük Qayıdış"ın əyani sübutu bu gün gözünüzün önündədir. Belə gözəl şərait yaratmaqla Azərbaycan dövləti bir daha öz siyasətini göstərir. İşğal dövründə ovaxtkı köçkünlərlə çoxsaylı görüşlərimdə mən demişdim ki, torpaqlar işğaldan azad olunandan sonra şəhərlərimiz, kəndlərimiz yenidən qurulacaq, əvvəlkindən daha gözəl olacaq. Bugünkü gün bu sözlərin əyani sübutudur. Bu gün sizin həyatınızda yeni dövr başlayır. Siz uzun illər - 30 il ərzində ağır şəraitdə köçkün, qaçqın həyatını yaşamısınız, mənəvi əzablar çəkmisiniz. Xüsusilə işğalın ilk mərhələsində köçkünlərin mütləq əksəriyyəti çadır şəhərciklərində yerləşmişdir. Ona görə bugünkü reallıq, bugünkü gün, o cümlədən ədalətin təntənəsidir. Ədalətə inanmaq və onu təmin etmək lazımdır. Bax, bizim xalqımız həm ədalətə inanıb, həm də onu təmin edib. Bu torpaqların sahibləri bizik. Düşməni öz torpaqlarımızdan qovmuşuq və bu gün gözəl həyat qururuq. Sizi bu münasibətlə ürəkdən təbrik edirəm, sizə xoşbəxtlik, cansağlığı arzulayıram.

**Sakinlər:** Çox sağ olun, sizin sayənizdədir. Allah canınızı sağ eləsin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakinlər:** Sizin sayənizdədir, Allah Sizi Azərbaycan xalqının başı üstündən əskik etməsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Qadın sakin:** Sizin sayənizdə biz indi çox gözəl günlərə çıxmışıq. Allah şəhidlərimizə rəhmət eləsin. Allah balalarımızı...

**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin:** Cənab Prezident, Sizinlə fəxr edirik. Əbədi Prezidentimiz olasınız.

**Qadın sakin:** Allah Sizə cansağlığı versin. Həmişə xalqımızın başı üzərində, həmişə əziz olasınız.

**Prezident İlham Əliyev:** Çox sağ olun. İşğal dövründə harada yaşamısınız?

**Qadın sakin:** Bakıda. Cənab Prezident, Sizin sayənizdə orada, burada...

Prezident İlham Əliyev: Şəraitiniz necə idi?

**Qadın sakin:** Çox əla, Sizin sayənizdə hər bir yerdə bizim şəraitimiz yaxşıdır. Allah Sizə cansağlığı versin. Mehriban xanıma da buradan səmimi salamlarımızı, çox-çox istəklərimizi bildiririk.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Qadın sakin:** Dövlətimizin başından əskik olmayasınız. Sizin sayənizdə Azərbaycanımız gündən-günə gözəlləşəcək. Allah var eləsin Sizi.

**Prezident İlham Əliyev:** İnşallah. Gənclər də həvəslə qayıdıblar da hər halda.

**Qadın sakin:** Çox, çox həvəslə. Sevincimizin həddi-hüdudu yoxdur, cənab Prezident, həqiqətən.

**Digər qadın sakin:** Bu, şəhid xanımıdır, iki övladı var. Əlbəttə, bugünkü günü biz həvəslə gözləyirdik.

**Prezident İlham Əliyev:** Allah şəhidlərimizə rəhmət eləsin.

**Sakinlər: Amin.**

**Qadın sakin:** Bütün şəhidlərimizin məqamı uca olsun. Çox sevincli bir günümüzdür. Allah Sizləri var eləsin! Allah Sizi qorusun, balalarınızı qorusun, var olasınız. Bir ana kimi təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

**Digər qadın sakin:** Bu tarixi, qürurverici günü bizə yaşatdığınız üçün xüsusi təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun. Bilirsiniz ki, Cəbrayıl şəhərində də artıq keçmiş köçkünlər yerləşib. Bu gün Cəbrayıl şəhərində ikinci və üçüncü yaşayış kompleksinin təməli qoyulacaq.

**Sakinlər:** İnşallah.

***Prezident İlham Əliyev:*** Burada yaşayacaq insanların sayı çoxalacaq. Eyni zamanda, bu gün Cəbrayıl şəhərində məscidin təməlini qoyacağam.

Bununla bərabər bilirsiniz ki, Cəbrayıl rayonunda iş yerləri də yaradılır. "Araz Vadisi" sənaye zonası artıq fəaliyyətdədir. Orada üç müəssisə fəaliyyət göstərir. Amma yaxın gələcəkdə onların sayı təqribən 20-yə çatacaqdır. Yəni, iş yerləri ilə bağlı burada heç bir problem olmayacaq.

O cümlədən Cəbrayıl şəhərində bu gün iki Günəş Elektrik Stansiyasının təməli qoyulacaq. Üçüncü, ən böyüyü isə artıq icra müddətindədir. Onu da bildirməliyəm ki, bu bölgənin çox gözəl kənd təsərrüfatı potensialı var. Eyni zamanda, burada Günəş enerjisi də istehsal olunacaq. Burada istehsal olunacaq Günəş enerjisi bütün bu bölgəni təmin edəcək. Çünki Cəbrayıl və Zəngilan rayonlarında icra edilmiş və ediləcək Günəş və su elektrik stansiyalarının gücü təqribən 400 meqavata çatacaq. Yəni, 400 meqavat böyük bir şəhərin tələbatını ödəyən gücdür.

Eyni zamanda, biz daim iş yerlərinin yaradılması ilə bağlı işləyirik. Burada da kənd təsərrüfatı ilə, heyvandarlıqla məşğul olmaq üçün şərait yaradılacaq. Təbii ki, artıq istifadəyə verilmiş digər kəndlərdə olduğu kimi, həyətyanı sahələrdə də əkin-biçinlə məşğul olmaq mümkündür. Hər biriniz üçün on iki sot həyətyanı sahə ayrılıb. Amma burada digər böyük yerlərdə, yəni, həm örüş, həm də ki, əkin üçün yararlı olan torpaqlarda kənd təsərrüfatı ilə məşğul olmaq mümkün olacaqdır. Yəni, Qarabağda, Şərqi Zəngəzurda işsizlik olmamalıdır. Bütün bu şəhər və kəndlər tikiləndə bunu biz əsas vəzifə kimi qarşıya qoyuruq ki, burada yaşayan insanlar işlə təmin olunsunlar.

**Sakinlər:** Çox sağ olun, Allah Sizə cansağlığı, uzun ömür versin. Bizim üçün xoş oldu.

**Prezident İlham Əliyev:** Yenidən təbrik edirəm sizi.

**Qadın sakin:** Mən şəxsən Horovlu sakinləri adından Sizə çox minnətdarlığımı bildirirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

Qadın sakin: Allah Sizi xalqımızın, dövlətimizin, belə gözəl balalarımızın üstündən əskik eləməsin. Həmişə var olasınız. Amin!

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Kişi sakin:** Biz bu gün kəndimizə gələndə həqiqətən də kəndimizi tanıya bilmədik. Sanki İsveçrədir, çox möhtəşəmdir, həddindən artıq möhtəşəmdir.

**Prezident İlham Əliyev:** Azərbaycan standartları belədir.

**Kişi sakin:** Bəli, təbii ki, Sizin sayənizdə, cənab Prezident. Biz həqiqətən də inana bilmədik. Yəni, bir kənddə bu qədər şərait, bu qədər gözəlliklər. Allah Sizdən razı olsun. Təşəkkür edirik, bu gün bizim sevincimizə sevinc qatdınız. Gəldiniz, bizimlə görüşdünüz, köçməyimiz münasibətilə bizi təbrik etdiniz. Çox sağ olun, Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Neçə yaşınız var idi işğal vaxtı?

**Kişi sakin:** Mən 12 yaşımda çıxmışam kənddən.

**Prezident İlham Əliyev:** Xatırlayırsınız?

**Kişi sakin:** Bəli, bəli, çox gözəl xatırlayıram. Allah Sizdən razı olsun, cənab Prezident!

**Digər kişi sakin:** 27 yaşımda da mən çıxmışam, indi 60 yaşımda geri qayıtmışam. Sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Nə ilə məşğul idiniz burada o vaxt?

**Digər kişi sakin:** Burada heyvandarlıqla. Bir də özüm sürücü idim, maşınla hərəkət edirdik elə o vaxt.

**Prezident İlham Əliyev:** O vaxt kənd necə idi?

**Digər kişi sakin:** Kənddə evləri hərə bir tərəfdə tikmişdi - dağda, daşda. İndi şəhər tiplidir, gözəldir, möhtəşəmdir. Təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Amma Horovlunun yerində tikilib.

**Digər kişi sakin:** Öz yerindədir, hə.

**Prezident İlham Əliyev:** O vaxt burada əsas məşğulluq maldarlıq idi?

**Digər kişi sakin:** Ancaq maldarlıq, təsərrüfat işləri, üzümçülük idi.

**Prezident İlham Əliyev:** Cəbrayıl rayonu, üzümçülük.

**Digər qadın sakin:** Pambıq yox idi, üzümçülük, taxılçılıq, heyvandarlıq inkişaf etmişdi. Bəli, çox yüksək idi. Çox sağ olun, var olun. Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev:** İndi kənd təsərrüfatını daha müasir üsullarla inkişaf etdirmək üçün imkanlar var. Burada həm aqroparklar yaradılır, eyni zamanda, kənd təsərrüfatı ilə məşğul olanlar üçün torpaq sahələri, əkin-biçin və heyvandarlıqla bağlı şərait də yaradılacaq. Artıq azad edilmiş bir çox kəndlərdə kənd təsərrüfatı ilə məşğul olanlar var. Həm maldarlıqla, arıçılıqla məşğul olan var, həm də meyvə bağları, üzüm bağları salınır. Yəni, bu kəndin ətrafı da kəndin özü kimi gözəl olmalıdır. Onu da siz etməlisiniz. Dövlət də təbii olaraq sizə öz dəstəyini verəcək.

**Sakinlər:** Çox sağ olun, təşəkkür edirik, Allah köməyiniz olsun.

**Digər qadın sakin:** Kəndin camaatı çox zəhmətkeşdir. Biz harada məskunlaşmışıqsa, oranı yaşıllaşdırmışıq. Bəli, çox sağ olun, dillərə dastan olub. Kəndi bu şəraitdə, bu vəziyyətdə bizə qaytardığınız üçün mən də kənd sakinləri adından təşəkkürümü bildirirəm.

**Digər kişi sakin:** Burada dəmyədə bitirdi, qəşəng də üzüm olurdu.

**Prezident İlham Əliyev:** Dəmyə? Susuz. Texniki üzüm, yoxsa süfrə üzümü?

**Digər kişi sakin:** Süfrə üzümü.

**Prezident İlham Əliyev:** Şərab zavodu var idi?

**Digər kişi sakin:** Şərab zavodumuz da var idi.

**Prezident İlham Əliyev:** Cəbrayılda.

**Digər kişi sakin:** Burada da var idi.

**Prezident İlham Əliyev:** Kənddə də var idi?

**Digər kişi sakin:** Yuxarıda, kolxoz həyəti deyirdik, orada idi. Böyük içki zavodu da, çaxır zavodu da var idi. Burada taxıl da dəmyə bitirdi.

**Prezident İlham Əliyev:** Yəni, torpaq münbitdir. Çox yaxşı. Bu bölgənin torpağı, ümumiyyətlə, çox yaxşıdır. Qarabağ zonasının torpağı bəzi yerlərdə bax belə qara, qapqara torpaqdır. Çox məhsuldar torpaqdır, amma düşmən buranı işğal edib, viran qoyub. Görürsünüz, bir dənə də salamat bina qoymayıb, dağıdıb və daşları da söküb aparıb, orada-burada satıb.

**Digər kişi sakin:** Sağ olun, çox sağ olun. Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev:** Həmişə deyirəm, biz qisasımızı döyüş meydanında aldıq. Şəhidlərimizin qanını da aldıq, ədaləti də bərpa etdik. Bütün düşmənləri də qovduq torpağımızdan.

**Digər kişi sakin:** Bizim başımızı uca etdiniz. Təşəkkür edirik, sağ olun.

**Prezident İlham Əliyev:** Siz də əziyyət içində yaşamısınız. Mən bunu bilirəm. Mən bu işğal dövründə köçkünlərlə neçə dəfə görüşmüşəm. Biz neçə şəhərcik saldıq, bəlkə də yüzə yaxın köçkün şəhərciyi. Çadır şəhərcikləri 2007-ci ildə ləğv olundu. Mən 2003-cü ildə Prezident seçiləndə demişdim ki, beş ilə bir dənə də qalmayacaq. Dörd ilə onu ləğv etdik. Sonra yüz minlərlə, təqribən üç yüz minə yaxın qaçqını yeni binalarda yerləşdirdik. Amma yenə də doğma torpaq başqa şeydir.

**Digər kişi sakin:** Doğma torpaq ayrı şeydir.

**Başqa kişi sakin:** Doğma torpaq başqadır.

**Prezident İlham Əliyev:** Siz harada yaşamısınız?

**Digər kişi sakin:** Bakıda.

**Prezident İlham Əliyev:** Bakıda. Elə buradan çıxanda birbaşa?

**Digər kişi sakin:** Yox, əvvəlcə çadır şəhərciyində yaşadıq. Orada soyuğa dözə bilmədik, ondan sonra Bakıya getdik.

**Prezident İlham Əliyev:** Bu işğalı xatırlayırsınız?

**Digər kişi sakin:** Hamısını xatırlayıram. Bu kəndə erməni girəndə axırıncı biz çıxmışıq.

**Prezident İlham Əliyev:** Haradan girmişdilər onlar?

**Digər kişi sakin:** Erməni bu üzdən girdi, Daşkəsən kəndi var orada. Oradan girdi bizim kəndə. Bir də Füzuli tərəfdən gəldi. Bura bizim orta kəhrizimizdir. Buradan aşdıq dağın o tərəfinə. Dağın o tərəfindən də biz Araza tərəf getdik. Ən axırıncı elə oradan çıxmışıq. Asfaltla Arazqırağı Beyləqan tərəfə getdik. Yarımız İrana adladıq. O vaxt İran da aranı kəsdi, imkan vermədi.

**Prezident İlham Əliyev:** Bəli, zəngilanlılar Arazı keçdilər o tərəfə. Buradakılar isə çay boyunca.

**Digər kişi sakin:** Çay boyu getdik. Oradan da İran çoxuna imkan vermədi, maşınlar qaldı, piyada qaldı çoxu. Üzüm bağları ilə getdilər. Heyvandarlıqdı, məsələn, heyvan qaldı. Bax, belə pis günlər idi, cənab Prezident.

**Prezident İlham Əliyev:** Bütün mal-mülk, ev-eşik hamısı qaldı?!

**Digər kişi sakin:** Ev-eşiyin hamısı dolu qaldı.

**Prezident İlham Əliyev:** Bunu deyirdik beynəlxalq təşkilatlara. Bir dənə beynəlxalq təşkilat bir şey elədi? Heç nə!

**Digər kişi sakin:** İnamımız Sən oldun.

**Prezident İlham Əliyev:** Bir nəfər gəlib erməniyə dedi ki, sən buradan çıx, bura sənin deyil?

**Digər kişi sakin:** Yox, yox!

**Prezident İlham Əliyev:** Hələ istəyirdilər ki, biz də barışaq bu vəziyyətlə. Hələ deyirdilər ki, sülh yolu ilə həll edin. Deyirdim, yaxşı, sülh yolu ilə edək, amma həll edək də. Yox, müharibə olmamalıdır. Sonra deyirdilər ki, müharibə heç bir nəticə verməz. Yəni, bu məsələ ilə məşğul olanların hamısı bizə qarşı birləşmişdi, hamısı Ermənistanın tərəfində idi.

**Digər kişi sakin:** Mətbuatda görürdük, sağ olun. Çətin idi, çətin zaman idi. Allah şəhidlərimizə rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Digər kişi sakin:** Başda Siz Komandanımız olmaqla, qaytardınız torpağı. Hamımız inanırdıq.

**Prezident İlham Əliyev:** Bizim xalqımız da iradə göstərmişdir, barışmadıq, uşaqlar vətənpərvərlik ruhunda böyüdü. Ailələrdə, məktəblərdə uşaqlara verilən tərbiyə böyük rol oynamışdır. Yəni, bu torpaqları bizim gənclərimiz sinələrini qabağa verərək azad etmişdir. Özü də ən çox elə birinci mərhələdə bizim şəhidlərimiz olub. O müdafiə xətlərini keçəndə - həm buradan, həm Füzulidən. Onlar bu torpaq həsrəti ilə yaşayırdılar, güllə qabağına getmək çox böyük cəsarət tələb edir.

**Digər qadın sakin:** Cənab Prezident, mənim 38 yaşım var idi, üç oğlumla çıxmışıq.

**Prezident İlham Əliyev:** Siz burada işləyirdiniz?

**Digər qadın sakin:** Bəli, məktəbin kitabxana müdiri olmuşam, orta məktəbin. Oğlanlarımın üçü də məktəbdə oxuyurdu, azyaşlı idilər. Onlarla çıxmışıq. İndi çox şükür, şükür nəvəmdir, oğlumdur, onlarla gəlmişik.

**Prezident İlham Əliyev:** Maşallah!

**Digər qadın sakin:** Allah Sizə kömək olsun. Hər şey Sizin sayənizdə oldu.

**Prezident İlham Əliyev:** İndi gənclər də darıxmamalıdır burada. Çünki birincisi, doğma torpaqdır. İkincisi, şərait yaxşıdır. Üçüncüsü, bütün bu Qarabağ, Şərqi Zəngəzur ən inkişaf etmiş bölgələrdən biri olacaq - nəinki Azərbaycanda, dünya miqyasında. Belə kəndlər harada salınır?

**Digər kişi sakin:** Yoxdur, gözəldir, hamının xoşuna gəlir. Gözəl kəndlərdir.

**Prezident İlham Əliyev:** Şəhərlər, yollar. İndi siz hansı yolla gəlmisiniz buraya?

**Digər kişi sakin:** Biz Şükürbəylidən gəldik.

**Prezident İlham Əliyev:** Yolu gördünüz?

**Digər kişi sakin:** Gördük, gördük, çox gözəldir.

**Prezident İlham Əliyev:** Elə yol olub?

**Digər kişi sakin:** Qabaq buradan o yolu gedəndə yarım saata, qırx dəqiqəyə gedib çıxırdıq. İndi 10 dəqiqəyə gəlib çıxırıq.

**Prezident İlham Əliyev:** İndi buradan Zəngilana gedəcəksiniz 20 dəqiqəyə. Buradan da Zəngəzur dəhlizi keçəcək. Böyük ticarət yolu olacaq.

**Digər qadın sakin:** İnşallah, sayənizdə.

**Prezident İlham Əliyev:** Yəni, bundan sonra daha çox inkişaf edəcək. Əsas odur ki, burada insanlar yerləşsin, uşaqlar çoxalsın, ailələr böyüsün, işlər getsin. Abadlıq-quruculuq, xoşbəxt həyat və sülh. Bundan sonra heç kim bizə qarşı baş qaldıra bilməz. Heç kim, heç kim!

**Sakinlər:** Sayənizdə, "Dəmir yumruq" sayəsində.

**Prezident İlham Əliyev:** Əgər kimsə baş qaldırsa, yenə də "Dəmir yumruğu" görəcək.

**Sakinlər:** Çox sağ olun.

***

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

# Cəbrayıl şəhər məscidinin təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl şəhər məscidinin təməlini qoyub.**

"PMD Projects" şirkətinin direktoru Nəriman Topçibaşev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, məscidin ümumi sahəsi 1530 kvadratmetrdən çox olacaq. Burada eyni vaxtda 615 nəfər ibadət edə biləcək. İkimərtəbəli məscid binasında eyni anda kişilərin və qadınların ibadət etmələri üçün şərait olacaq. Məsciddə icma zalı, avtomobil dayanacağı, söhbətgah yaradılacaq. Məscidin minarələrinin hündürlüyü 34,2 metr, günbəzin hündürlüyü isə 22,6 metr olacaq.

Qeyd edək ki, işğaldan əvvəl Cəbrayıl rayonunda 5 məscid, 40-dan çox ziyarətgah, 20-dən artıq tarixi-memarlıq abidəsi olub. İşğal dövründə digər ərazilərimizdə olduğu kimi, bu rayondakı tarixi-dini abidələrimiz ermənilər tərəfindən məhv edilib. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağın və Şərqi-Zəngəzurun tarixi-dini və mədəni abidələrinin bərpası, yenilərinin inşası istiqamətində Azərbaycan dövləti tərəfindən mühüm işlər görülüb. Bu xüsusda 2017-ci ildə Cocuq Mərcanlı kəndində inşa edilən, Şuşa məscidinin bənzəri olan məscidi qeyd etmək olar.

# Cəbrayıl rayonunda Kənd təsərrüfatı işçilərinin peşə bayramı qeyd olunub



**31 oktyabr 2025-ci il tarixdə 01 noyabr kənd təsərrüfatı işçilərinin peşə bayramı münasibətilə tədbir keçirilib. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, aparatın məsul əməkdaşları, rayon Aqrar İnkişaf Mərkəzinin direktoru Şahin Şirinov, inzibati ərazi dairəsinin nümayəndələri, idarə, müəssisə və təşkilat rəhbərləri iştirak ediblər.**

Əvvəlcə tədbir iştirakçıları Heydər Əliyev adına Mədəniyyət və İstirahət parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, xatirəsini dərin ehtiramla yad ediblər.

Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxış edərək aqrar sahədə çalışanları peşə bayramları münasibətilə təbrik edib, onlara gələcək işlərində uğurlar arzulayıb. Rayon rəhbəri aqrar sahədə ulu öndər Heydər Əliyevin başladığı islahatların uğurla həyata keçirilməsindən, Prezident İlham Əliyevin kənd təsərrüfatı məhsulları istehsalçılarına qayğısından geniş söhbət açıb.

Cəbrayıl DAİM-in direktoru Şahin Şirinov son illər rayonda, eləcə də işğaldan azad olmuş ərazilərdə kənd təsərrüfatı sahəsində görülmüş işlərdən, qarşıda duran vəzifələrdən, qazanılmış uğurlardan danışmış və bu uğurlara görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Tədbir kənd təsərrüfatı məhsullarından ibarət sərgiyə baxış ilə davam etdirilmişdir.

**Noyabr ayının 3-də Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov təsdiq olunmuş qrafikə əsasən Bakı şəhəri, Suraxanı rayonunda fəaliyyət göstərən Cəbrayıl rayon Hovuslu kənd tam orta məktəbində rayon sakinləri ilə səyyar görüş-qəbul keçirib. Qəbulda İcra başçısı ilə yanaşı aparatın məsul əməkdaşları və rayon sakinləri iştirak ediblər.**

# Rayon rəhbəri Suraxanı rayonunda səyyar görüş-qəbul keçirib



**Görüşü giriş sözü ilə açan Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov sakinləri salamlayaraq, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların mərkəzində Azərbaycan vətəndaşının dayandığını vurğulayıb.**

Bildirilib ki, regionlarda keçirilən səyyar görüşlərin məqsədi yerlərdə əhalinin üzləşdiyi problemlərin operativ şəkildə müəyyən edilməsi, həll imkanlarının dəyərləndirilməsi və sosial rifahın artırılmasıdır. Daha sonra rayon rəhbəri qəbul iştirakçılarını işğaldan azad olunmuş ərazilərə qayıdışla bağlı maarifləndirib, görülən işlərdən danışıb.

Qəbulda rayon sakinləri tərəfindən səsləndirilən təkliflər və problemlər diqqətlə dinlənilib. Bəzi məsələlər yerindəcə həllini tapıb, digərlərinin araşdırılması və icrası nəzarətə götürülüb.

# 8 Noyabr Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar ağacəkmə aksiyası



**30 oktyabr 2025-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması və 8 Noyabr Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar rayon İcra Hakimiyyətinin, YAP rayon təşkilatının və Təhsil sektorunun birgə təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib.**

Aksiya çərçivəsində 37-si eldar şamı, 19-u gül kolu, 12-si meşə ağacı, 14-ü dekorativ kol və 267-si meyvə ağacı olmaqla 349 ağac və kollar əkilib. Əkilən ağac və kollar suvarılıb, mövcud ağacların dibləri yumşaldılıb və yaşıllıqlara aqrotexniki qaydada qulluq göstərilib.

Rayonda bu kimi aksiyaların bundan sonra da davam etdirilməsi nəzərdə tutulur.

# Şəhid Əyyub Süleymanovun anım tədbiri keçirilib

04 noyabr 2025-ci il tarixdə Cəbrayıl rayonun Qumlaq kəndindən olan Vətən müharibəsi şəhidi Süleymanov Əyyub Rasim oğlunun şəhadətə yüksəlməsindən beş il ötür. Bu münasibətlə 3 saylı Cəbrayıl qəsəbəsi ərazisində salınmış "Şəhidlər Xiyabanı"nda şəhidimizin əziz xatirəsinə anım tədbiri keçirilib. Tədbirdə Cəbrayıl RİH-i başçısının müavinləri Tapdıq Nəsirov, Fəridə xanım İbayeva, YAP rayon təşkilatının sədr müavini Məhəmməd Əliyev, aparatın məsul əməkdaşları, YAP fəalları, Şəhid Ailələri, ailə üzvləri, şəhid ailələri, dövlət qurumlarının təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları şəhidimizin məzarı önünə gül dəstələri düzüb, ruhuna dualar oxuyaraq əziz xatirəsini dərin hörmət və ehtiramla yad ediblər.





# Şəhid Mustafayev Təhmasib Sərməst oğlunun ailəsi ziyarət olunub

31 oktyabr 2025-ci il tarixdə Cəbrayıl rayon 11 saylı Uşaq bağçasının uşaqları şəhid, baş leytenant Mustafayev Təhmasib Sərməst oğlunun anım günü ərəfəsində ailəsini ziyarət ediblər.

# Məişət zorakılığına qarşı tədbir keçirildi

**27 oktyabr 2025-ci il tarixdə Cəbrayıl rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 9 saylı tam orta məktəbdə "Məişət zorakılığı ilə mübarizədə yeganə yol sağlam həyat tərzinin təbliğ olunması və maarifləndirmənin gücləndirilməsidir" mövzusunda tədbir keçirilib. Tədbirdə rayon İcra Hakimiyyəti Başçısının müavini Fəridə İbayeva, məktəbin direktoru Vəli Cəlilov, səhiyyə və mədəniyyət işçiləri, valideynlər, məktəbin müəllim və şagird kollektivi iştirak ediblər.**

Tədbirdə çıxış edənlər bildiriblər ki, dünyada geniş yayılmış problemlərdən biri də məişət zorakılığıdır. Bu problem demək olar əksər ailələrdə müəyyən formalarda özünü büruzə verir. Məişət zorakılığı kimi qəbul edilən ailədaxili şiddət bu günün deyil, əsrlərin problemidir. Hazırda dünyada və ölkəmizdə bu problemin aradan qaldırılması istiqamətində müəyyən tədbirlər görülür. Bu gün keçirdiyimiz tədbir də ölkəmizin bu sahədə apardığı işlərin davamıdır. Belə tədbirlərin nəticəsidir ki, son beş ildə Cəbrayıl rayonunda gender zorakılığına məruz qalan ailələr-qadınlar çox az sayda qeydə alınıb. Belə ki, 2020, 2021, 2022, 2024-cü illərdə bu kimi hallar baş verməmiş, 2023 və 2025-ci illərdə isə yalnız məişət zorakılığı-psixoloji zorakılığa məruz qalan 1 qadın qeydə alınıb. Rayon İcra Hakimiyyətində fəaliyyət göstərən Məişət zorakılığının qarşısının alınması sahəsində Monitorinq və Əlaqələndirmə Qrupu tərəfindən dərhal aparılan profilaktik tədbirlər nəticəsində zorakılığın qarşısı alınmış və tədbirlər həyata keçirilmişdir. Qeyd olunub ki, bu problemlərlə mübarizədə yeganə yol sağlam həyat tərzinin təbliğ olunması və maarifləndirmənin gücləndirilməsidir.



Sonda qadın zorakılığına qarşı hazırlanmış "Susma" adlı sosial çarx nümayiş etdirilib, məktəblilərin hazırladıqları səhnəcik göstərilib, maarifləndirici bukletlər paylanılıb və suallar ətraflı cavablandırılıb.

## İSMAYIL KAZIMOV - 70

# Alim ömrünü səhifələyərkən...

*Onun ömür yolunun səhifələrini təkcə bugünkü yox, gələcək nəsillər də yazıb qoyduğu əsərlərindən oxuyacaqlar*

**Filologiya elmləri doktoru, professor İsmayıl Babaş oğlu Kazımov 1 oktyabr 1955-ci ildə Cəbrayıl rayonunun ziyalılar və alimlər kəndi kimi tanınan Soltanlı kəndində anadan olmuşdur. 1972-ci ildə orta məktəbi doğma Soltanlı kəndində bitirdikdən sonra arzularının arxasınca Bakı şəhərinə üz tutmuş, Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə qəbul olmuşdur. 1976-cı ildə o, ali təhsilini tamamlamış, təyinatla İmişli rayonunun Buludlu kənd məktəbinə göndərilmiş, 1976-1978-ci illərdə burada Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir. İsmayıl Kazımov 1979-1981-ci illərdə keçmiş sovet ordusunda olmuş, bu dövr ərzində o, həm də Belarusiyanın Borisov şəhərində tank komandiri məktəbində də oxumuşdur. Əsgəri xidmətini bitirdikdən sonra o, doğulduğu kəndə qayıtmış, 1981-1983-cü illərdə Soltanlı kənd orta məktəbində müəllim işləmişdir.**



1984-1988-ci illərdə isə Cəbrayıl rayonunun Sarıcallı kəndindəki 131 saylı texniki peşə məktəbində müəllim kimi fəaliyyətini davam etdirmişdir. Lakin İsmayıl müəllim yalnız pedaqoji fəaliyyətlə qapanıb qalmır, həm də elmi istiqamətdə araşdırmalar aparırdı. Buna uyğun olaraq da o, "Oğuz qrupu türk dillərində yarımçıq cümlə" mövzusunda apardığı tədqiqatını tamamladı, 1987-ci ildə bu mövzuda dissertasiyasını uğurla müdafiə etdi və Moskva Ali Attestasiya Komissiyası ona filologiya elmləri namizədi alimlik dərəcəsi verdi. Bu, onun gələcək elmi uğurlarının əsaslı başlanğıcı oldu. Bir müddət sonra - 1988-ci ildə Bakıya - AMEA-nın Nəsimi adına Dilçilik İnstitutuna işə dəvət olunur və bununla da gənc alimin həyatının dönüş mərhələsi başlayır. O, elmi tədqiqat institutunda fəaliyyət göstərməklə yanaşı, həmçinin pedaqoji fəaliyyətlə də məşğul olmağa başlayır.

Bu minvalla alim Bakı Dövlət Universitetində, "Odlar Yurdu" Universitetində, Bakı Qızlar Universitetində, Azərbaycan Müəllimlər İnstitutunun Quba filialında, Bakı Slavyan Universitetində, Sumqayıt Dövlət Universitetində, Azərbaycan Fövqəladə Hallar Nazirliyinin Akademiyasında və başqa mötəbər ali təhsil ocaqlarında tələbələrə dilçilik elminin, türkologiya elminin sirlərini öyrədir.

Qeyd edək ki, İ.B.Kazımov müxtəlif ali məktəblərdə dərs dediyi kimi, onun elmi yaradıcılıq sahəsi də zəngin və çoxşaxəlidir. Belə ki, o, türk dillərinin sintaktik quruluşunda yarımçıq cümlənin yeri, həmçinin Axısqa, məshəti türklərinin, qaqauz dilinin və başqa azsaylı türklərin dillərinin özünəməxsusluqlarını öyrənmiş, eləcə də dilçiliyə dair bir sıra problemlərin həlli yolları ilə bağlı fikirlər irəli sürüb.

İsmayıl Kazımov Dilçilik İnstitutunda elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi vəzifələrində çalışıb, 2010-cu ildən isə türk dilləri şöbəsinin baş elmi işçisi kimi fəaliyyət göstərir. Hazırda isə Türk dilləri şöbəsinin müdiri vəzifəsindədir.

Qeyd etdiyim kimi, daim ciddi elmi axtarışlarla məşğul olan alimin 100-dən çox elmi-publisistik məqaləsi, xeyli sayda kitabları vardır. Eyni zamanda ali məktəblərdə apardığı fənlərə müvafiq də bir sıra dərslik proqramlarının müəllifidir.

İsmayıl Kazımov 2002-ci ildə "Axısqa türklərinin dili" mövzusunda doktorluq dissertasiyasını da uğurla müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. O, rəhbəri olduğu türk dilləri şöbəsinin əməkdaşları ilə birgə Azərbaycan, türk, türkmən, qaqauz dillərinin dil vahidlərinin, xüsusən də sintaktik vahidlərinin oxşar və fərqli cəhətləri ilə bağlı araşdırmalar aparıb, "Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası" kitabının III hissəsi olan Sintaksis bölməsini 2002-ci ildə nəşr etdiriblər.

Bundan başqa, İsmayıl müəllimin müəllifliyilə 1987-ci ilə "Oğuz qrupu türk dillərində yarımçıq cümlə", 1999-cu ildə "Axısqa türklərinin dili" ("Elm"), 2001-ci ildə "Axısqa toponimləri" ("Nurlan"), 2012-ci ildə "Axısqa türkləri: dil, tarix və folklor" (Elm və təhsil"), 2014-cü ildə "Mahmud Kaşqari" "Divan"ı və çağdaş türk dilləri" ("Elm və təhsil"), 2014-cü ildə "Azərbaycan dilinin funksional qrammatikası" ("Söyləm" nəşriyyatı) kimi dilçilik elminə, türkoloji dilçiliyə dair samballı elmi monoqrafiyaları işıq üzü görmüşdür. Kitabların adlarından da bəri başdan görünür ki, o, dilçi-türkoloq kimi dilçilik elminə mühüm töhfələr bəxş etmiş, Azərbaycanda türkoloji araşdırmalar istiqamətində mühüm xidmətlər göstərmişdir. Onun bu sahədəki uğurlarından görkəmli alimlərimiz akademik Möhsün Nağısoylu, akademik Tofiq Hacıyev, professorlar Qəzənfər Kazımov, Mübariz Yusifov, Nizami Xudiyev, Roza Eyvazova, AMEA-nın müxbir üzvü Əbülfəz Amanoğlu, professor Yavuz Axundov və başqaları söz açmış, təqdirəlayiq rəylər söyləmişlər.



Eyni zamanda İsmayıl Kazımovun dilçilik elmi, türkologiya sahəsindəki elmi fəaliyyəti ilə bağlı ölkə xaricində yaşayan alimlər də müsbət fikirlər səsləndirmişlər. Onlardan Nyu-Yorkdakı Dünya Dillərinin Tədqiqi İnstitutunun antropologiya və linqvistika bölməsinin müdiri, professor Harold R. Battersbi, Rusiya Milli Akademiyası Dilçilik İnstitutundan R.İ.Lavrov, Konya Universitetindən doktor-professor Osman Uyanık və başqalarının adlarını bu sırada çəkə bilərik.

Bütün bunlarla yanaşı professor İsmayıl Kazımov ölkə xaricindəki beynəlxalq elmi konfrans və simpoziumlarda da - Mahaçqala, Aşqabad, Bişkek, Ankara, İstanbul, Kiyev və başqa şəhərlərdə də maraqlı və dilçilik elmi baxımından aktual səslənən mövzularda etdiyi məruzələrlə, Azərbaycanımızı layiqincə təmsil etmişdir.

İsmayıl müəllimin elmi tədqiqatları təkcə dilçilik, türkologiya sahələrilə məhdudlaşıb qalmır, ədəbiyyatşünaslıq istiqamətində də maraqlı əsərlərə imza atır. 2011-ci ildə "Ağarəhim Rəhimovun bədii nəsrinin dil və üslub özəlliyi" ("Bakı Qızlar Universiteti" nəşriyyatı), 2013-cü ildə "Yazıçı karyerası: Dilin və sənətin işığında" (Bakı Qızlar Universiteti), 2010-cu ildə "Nizami Cəfərov və Azərbaycan türkçülük düşüncəsi" (AzAtaM), 2012-ci ildə həmyerlimiz yazıçı Tahir Kazımovun bədii yaradıcılığından bəhs edən "Yazıçı: müasir həyat və gerçəkliklər" ("Elm və təhsil") və başqa adda kitabları isə bir daha göstərir ki, o, dilçilik elmi ilə yanaşı ədəbiyyatşünaslıq istiqamətində də maraqlı elmi monoqrafiyalara imza atmışdır. Bütün bunlar isə onu deməyə əsas verir ki, filologiya elmləri doktoru İsmayıl Babaş oğlu Kazımov filoloji araşdırmaları ilə tək istiqamətli yox, qoşa qanad üzərində - dilçilik və ədəbiyyatşünaslıq üzrə qanad çalmış, özünəməxsus elmi yüksəklikləri fəth etməyə nail olmuşdur.

Bütün bunlarla bahəm o, respublikamızda və respublikadan kənarda nəşr olunan bir sıra nüfuzlu elmi jurnallarda da vaxtaşırı olaraq tutarlı elmi məqalələri ilə çıxışlar etmişdir. Elmi yaradıcılıqla yanaşı onun maraqlı və məzmunlu nəsr əsərləri, hekayələri də, publisistik məqalələri də dövri mətbuat səhifələrində, o cümlədən yerli rayon qəzetimiz olan "Xudafərin" qəzetində də vaxtaşırı işıq üzü görmüş və oxucular tərəfindən maraqla qarşılanmışdır. Bütün bunlar isə alimin təkcə elmi ictimaiyyət arasında deyil, geniş ictimaiyyət içərisində də özünə böyük oxucu kütləsi qazandırdığının bariz təcəssümüdür.

Professor İsmayıl Kazımov doğulduğu rayona da sıx bağlı adamdır. Ölkə prezidenti İlham Əliyevin Cəbrayıl rayonunun işğaldan azad olunmasının ildönümü günündə - 2021-ci ilin 4 oktyabrında Cəbrayıl şəhərində rayon ziyalıları ilə görüşündə də fəal ziyalı kimi iştirakı hamımızın yadındadır. Eyni zamanda onun professor Qəzənfər Kazımovla birgə 1998-ci ildə işıq üzü görmüş "Soltanlı: bir kəndin yetirmələri" kitabı da alimin doğma kəndinə olan ehtiramının bir nümunəsidir. Həmçinin bir qrup cəbrayıllı ziyalısı ilə həmmüəllifi olduğu 2006-cı ildə "Nurlan" nəşriyyatında işıq üzü görmüş "Cəbrayıl və cəbrayıllılar" kitabı da ümumilikdə doğma Cəbrayıl rayonuna olan ehtiram və sayğısının bir göstəricisidir. Bütün bu faktlar isə bir daha ona dəlalət edir ki, professor İsmayıl Kazımov bir alim kimi bütöv Azərbaycana xidmət etməklə yanaşı, o, həm də bir el-oba adamı kimi öz doğma rayonuna bağlı ziyalı, öz doğma elinin övladıdır.

*Bir alim kimi respublikada və respublikadan xaricdə əsərləri ilə tanınan İsmayıl Kazımov ali məktəb auditoriyalarında dərs deyən bir müəllim kimi də tanınır, seçilir. Onun tədris prosesi ilə bağlı dəyərli dərslik proqramları da işıq üzü görmüşdür ki, bütün bunlar da onun Azərbaycan təhsilinə töhfəsi sayıla bilər.*



*Onlardan bəzilərini aşağıda misal göstərirəm:*

**1.** Türk dillərinin leksikologiyası proqramı (Magistratura pilləsi üçün). BDU, Bakı, 2003, 8 s.

**2.** "Azərbaycan dili fonetikasının əsasları" fənnindən proqram. HSM 040001-Azərbaycan dili. Bakı, 2009 (Magistr hazırlığı üçün), 10 s.

**3.** Türk dilçiliyinin nəzəri qrammatikası. \\Şərqşünaslıq fakültəsi Türk filologiyası kafedrasının dil üzrə magistr pilləsi. Azərbaycan və rus bölmələri üçün fənn proqramları. Bakı, 2008, s. 9-13.

**4.** Türk dillərinin müqayisəli qrammatikası. \\Şərqşünaslıq fakültəsi Türk filologiyası kafedrasının dil üzrə magistr pilləsi. Azərbaycan və rus bölmələri üçün fənn proqramları. Bakı, 2008, s. 14-18.

**5.** Türk dilçiliyinin müasir problemləri. \\Şərqşünaslıq fakültəsi Türk filologiyası kafedrasının dil üzrə magistr pilləsi. Azərbaycan və rus bölmələri üçün fənn proqramları. Bakı, 2008, s. 22-26.

**6.** Türk dilinin leksikologiyası. \\Şərqşünaslıq fakültəsi Türk filologiyası kafedrasının dil üzrə magistr pilləsi. Azərbaycan və rus bölmələri üçün fənn proqramları. Bakı, 2008, s. 27-30 və s.

Dərslik proqramlarının adlarından da göründüyü kimi o, bir alim kimi yazdıqlarını sadəcə kağız üzərində - yeni məqalə, tezis, məruzə və kitablar şəklində yazıb saxlamır, araşdırdıqlarını proqram şəklinə salmaqla və ali məktəblərdə tədris etməklə həm də praktiki baxımdan gerçəkləşdirir, başqa sözlə, nəzəri olaraq yazdıqlarını tədris prosesində praktiki olaraq həyata keçirir.

Bütün bunlar isə filoloq alimin düşüncə və mülahizələrinin, tədqiqatlarının nəzəri olaraq irəli sürdüyü müddəaların təcrübi baxımdan da öz ifadəsini tapmasının əyani göstəricisidir.

Əlbəttə, bütün bunlar 70 illik bir alim ömrünün işığında ümumi olaraq söylənilən bir sıra mühüm fraqmentlərdir. Xalqa zəkası ilə xidmətdə keçən ziyalı ömrünün bəzi məqamlarını 5-10 dəqiqəlik qısa müddətdə sizlərə burada xatırlatdım ki, onun kimliyi barəsində ümumi təsəvvür yaransın. Belə mənalı və məzmunlu ömür yolunu bütöv şəkildə danışmağa isə saatlar yox, heç günlər də yetməz. Onun ömür yolunun səhifələrini təkcə bugünkü yox, gələcək nəsillər də yazıb qoyduğu əsərlərindən oxuyacaqlar. Mən isə fikirlərimi hələ 10 il bundan əvvəl alimin 60 illik yubileyi ərəfəsində yazdığım bir şeirimlə bitirirəm:

## Türkün birlik zəfəri!

*Düz altmış il qabaq,*
*Cəbrayıl -*
*Soltanlı qəryəsi...*
*Keçəlməmmədli tirəsi,*
*Bu qədim, ulu torpaq-*
*Türk, azəri yurdunda*
*Bir oğul doğuldu*
*Babaşoğlu İsmayıl*
*Adında.*
*Taleyini bağladı elmə,*
*Türk elinə*
*Azsaylı türk xalqlarının*
*Dilini öyrəndi kəlmə-kəlmə,*
*Sözünü göyərti ilmə-ilmə.*
*Qaqauz dili-*
*Bu əski Oğuz dili*
*Şirindən şirin gəldi ona.*
*Axısxa türklərinin dili-*
*Yurdundan, yuvasından*
*Didərginlərin, qəriblərin dili*
*Qəlbini titrətdi yana-yana.*
*Nəzər saldı*
*Cənubi Azərbaycana:*
*Gözünə sataşdı*
*Sunqur türkləri...*
*Bir yarısı-Rusiya,*
*Moldaviya,*
*Bir parası Gürcüstana,*
*Bir hissəsi İrana,*
*Nə bilim, daha ha yana...*
*Dünyaya, hər bir yana*
*Səpələnmiş,*
*Param-parça olmuş*
*Türk dünyasına baxdı,*
*Qəlbini yandırıb-yaxdı*
*Bizim İsmayıl müəllim!*
*Necə bir yerə yığsın onları?!*
*Əzəli yaxşı gətirsə də,*
*Fəqət gətirməyib sonları!*
*Bir-birindən ayrı düşən*
*Bu qədim türk soyları*
*Əzəlindən bir olublar,*
*Əlbir-elbir,*
*Həm də dilbir olublar!...*
*Dilbirliyi naminə*
*Bir məxrəcə, bir ünvana*
*Cəmləyib*
*Tədqiq etdi onları-*
*Əski-qədim Hunları!..*
*Qaqauz, Axıska, sunqur türkləri,*
*Azərbaycan-azəri türkləri*
*Bir olublar soyları - kökləri.*
*Onları bir ad birləşdirib:*
*Bu adın arxasında*
*Dil dayanıb,*
*El gücü, sel gücü*
*Deyib babalar.*
*Bu birlikdədi gücü*
*Türkoloq alim*
*İsmayıl müəllim*
*Görüb-dərk etdi,*
*Bir məcraya yönəltdi!*
*Dilçi alim hünəri*
*Qazandırdı bu yolla*
*Türkə birlik zəfəri!*

***Şakir Əlifoğlu,***
***fəlsəfə doktoru, dosent***
**("Kredo", 25.09.2015)**

## HAMIYLA DİL TAPAN DİLÇİ ALİM

**Professor İsmayıl Kazımovu BDU-nun 2-ci kurs tələbəsi olan vaxtlardan tanıyıram. Cəbrayıl rayonunda yaşayan əhalinin danışıq tərzi, dialekt və şivələri ilə bağlı elmi-tədqiqat üslublu məqalələrimi ona göstərirdim. "Diftonqlaşan səslərimiz", "Triftonqlaşan səslərimiz" və s. adda məqalələrimin əlyazmalarını oxuyub, "bunlar hardan sənin ağlına gəlir ki, belə original mülahizələr söyləyirsən", - deyib təqdir edirdi. Daha sonra tale elə gətirdi ki, mən ali təhsili bitirdim, elmi iş yazıb müdafiə etdim və İsmayıl müəllimlə bir il də Quba şəhərinə - Müəllimlər İnstitutunun Quba filialında dərs deməyə də birlikdə gedib gəldik. Beləliklə, onunla həmkar kimi bir yerdə işlədik, yol yoldaşı da olduq.**

Bundan başqa, mən Saatlı rayonunda müəllim işləyəndə, İsmayıl müəllim mənə sifariş göndərdi ki, orada nəşr olunmuş məshəti, ahısqa türklərinin mətbu orqanı olan "Vətən səsi" qəzetinin bütün saylarını əldə edib ona göndərim. Mən Fətəlikənd kəndində yaşayan türklərlə gedib görüşdüm. Qəzetin bütün saylarını bağlama şəklində gətirib İsmayıl müəllimə verdim. İsmayıl müəllim alim kimi ixtisasca türkoloqdur. Qaqauz türklərinin dili, məshəti türkləri, ahısqa türklərinin dili və s. haqda tədqiqatlar aparıb.

Mahmud Kaşğari ilə bağlı tədqiqatları var. Yeri gəlmişkən, qeyd edim ki, İsmayıl müəllimin oğlu Cahid Kazımov da M.Kaşğari divanı ilə bağlı namizədlik işi yazıb müdafiə edib. Bütün bunlar isə bir daha onu göstərir ki, o, vətənpərvər ruhlu, türk dillərinin mahir tədqiqatçısı olan bir ziyalıdır. Və bu ruh, bu tədqiqatçılıq irsi onun övladının da ruhunda davam edib yaşayır.

İsmayıl Kazımovla mən konfranslarda da çıxışlar etmişik. Həmçinin mənim baş redaktoru olduğum "Xudafərin" qəzetində də onun maraqlı yazıları dərc olunub. Bütün bunları sadalamaqda məqsədim odur ki, mən onunla kifayət qədər yaxından tanışam və isti münasibətlərimiz var. Mən İsmayıl müəllimlə iki dəfə də İran İslam Respublikasında olmuşam. Məsəl var deyirlər ki, qardaşın kimdi, deyir yoldaş olmamışam (yəni tanımıram). Bu dialoqşəkilli məsəl ona işarə edir ki, insanı, hətta doğma qardaşı da yolda, yəni onunla yol yoldaşı olanda tanıya bilərsən. Bu mənada professor İsmayıl Babaş oğlu Kazımovu təkcə alim, ziyalı, türkoloq - dilçi kimi rəsmən tanımıram, həm də onunla yol yoldaşı olan bir munis insan kimi tanıyıram. Deməyim odur ki, İsmayıl müəllim böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran, yəni hamıyla dil tapa bilən bir insandır. Onunla dünyanın harasına getsən, heç vaxt darıxmazsan, özünü qərib hiss etməzsən. Bu cür mehriban, ünsiyyətcil bir insandır İsmayıl müəllim. Alim kimi dilçiliyi ilə bir insan kimi "dilçiliyi" - ünsiyyətcilliyi bir-birini tamamlayan munis bir yoldaşdır, dostdur, həmkardır, el adamıdır. Əliaçıq, könlü açıq və insanlara ünsiyyəti açıq olan İsmayıl müəllimə uzun ömür, can sağlığı, uğurlar arzulayıram.

**Şakir Albalıyev**

# Şeirdəki istəklər - ilahidən gələn vəhylər




**Texnika elmləri doktoru, professor, Əməkdar elm xadimi Həsən Əhməd oğlu Hüseynovun "Publisistika və Poeziya" ("Vektor" Beynəlxalq Nəşrlər Evi, 2019) adlı kitabı ilə üz-üzəyəm. kitaba Texnika elmləri doktoru, professor, Əməkdar elm xadimi Ramiz Hümbətov dəyərli ön söz yazıb.**

Kitab "Publisistika" və "Şeirlər" adlı iki bölmədən ibarət olsa da, "Publisistika" bölməsinin özü də iki qrupda səciyyələndirilə bilər. Belə ki, burada özünə yer alan publisistik məqalələr əvvəlcə "Azərbaycan" və "Azərbaycan müəllimi" qəzetlərində dərc olunmuşdur. Deməli, "Azərbaycan müəllimi"ndə işıq üzü görən yazılarda müəllif özünün müəllimlik peşəsinə müvafiq olaraq elmimizin - təhsilimizin müxtəlif sahələri ilə bağlı dəyərli fikirlər irəli sürmüşdür. "Azərbaycan" qəzetində gedən yazılarda isə əsasən maşınqayırma - cihazqayırma texnologiyaları ilə bağlı iqtisadi inkişaf və onun inkişaf perspektivləri barədə dəyərli təklif və mülahizələri özünə yer almışdır. Bu kimi yazılarda müəllifin alim - vətəndaş mövqeyi özünün bariz ifadəsini tapmışdır. Bir sözlə, kitabın publisistika bölümündəki yazılar Həsən müəllimin alimlik və pedaqoji xidmətlərinin işığında araya-ərsəyə gəlmiş yazılardır ki, bunlarla o, vətəninə, xalqına, dövlətimizə müəllim və alim kimi xidmətini ifadə etmişdir. Başqa sözlə, bu yazılar professorun alim və pedaqoq kimi fəaliyyətinin nəticəsi olaraq araya-ərsəyə gəlmişdir. Burada onun elmi-pedaqoji tövsiyələri, elmi analizləri özünün ifadəsini tapmışdır.

Kitabın 3-cü hissəsi kimi oxuduğumuz bölmədə Həsən Hüseynovun lirik-emosional duyğularının ifadəsi olaraq şeirləri özünə yer alıb. Bu şeirlər pedaqoq-alimin həyata duyğusal baxışının inikasıdır. Əgər publisistikasında o, alim-vətəndaş, pedaqoq-vətəndaş mövqeyini sərgiləyirsə, şeirlərində bir insan kimi onu düşündürən, narahat edən məsələlərə toxunulur. Nədir bəs onun qəlbini titrədən bu düşüncələr?- Kitabın annotasiyasında bu suala belə bir cavabla rastlaşırıq: "Oxucunun diqqətini işğal altında olan torpaqlarımıza və Cənub həsrətinə cəlb etmək üçün müəllif poeziyaya müraciət etmişdir". Bu qeyddən də görürük ki, Həsən Hüseynov şeirlərində onu narahat edən məsələlərə bir insan - vətəndaş olaraq öz haqq səsini ucaltmışdır. Yuxarıda da qeyd etmişdim ki, kitab 2019-cu ildə, yəni doğma Qarabağımızın hələ işğaldan azad edilmədiyi vaxtlarda nəşr olunub. Buna görə də təbii ki, müəllif ön sözdə professor Ramiz Hümbətovun qeyd etdiyi kimi, "kiçik vətəni olan Cəbrayıla, onun faciəsinə... biganə qala bilməmək" kimi humanist təbiətini bu şeirlərdə açıq-aşkar şəkildə nümayiş etdirmişdir. İstərdim ki, həmin nümunələrin işığında professor Həsən Hüseynovun həssas dünyası ilə tanış olaq. "İki vətən" adlı aşağıdakı şeirə diqqət edək:

**Arazın o tayı vətənim,**
**Bu tayı vətənim.**
**O tayı görməyə**
**Amanım yox mənim.**
**Bu necə vətəndir,**
**Çatsam da bu yaşa,**
**Görmədim üzünü.**
**Ömründə bir dəfə,**
**Bəs salam verməzmi.**
**Qardaş da**
**Qardaşa.**
**Bu dərdim, bu qəmim**
**Dağlardan ağırdır.**
**Arazın suyuna qarışıb axıram,**
**Füzuli həsrətlə qürbətdən baxardı,**
**Mən isə vətəndən-vətənə baxıram.**

1813 və 1828-ci illərdə Rusiya və İran arasında bağlanmış Türkmənçay və Gülüstan müqavilələri ilə doğma Azərbaycanımızı iki yerə şaqqaladılar. Bu tarixi faciənin bədii inikası verilib yuxarıdakı misralarda: Arazın o tayı da, bu tayı da vətənimdir deyən müəllif demək istəyir ki, Araz çayının o üzünü ayırıb başqa bir dövlətin - İranın tərkibinə qatdıqlarından, o taydakı vətənimə sərbəst gedib-gələ bilmirəm. O taydakı soydaşlarımızıla gedib görüşə - əhvallaşa bilməməyimizin ağrı-acısını "bəs salam verməzmi qardaş-qardaşa" şəklində dilə gətirir və bunu "dağlardan da ağır olan dərd" kimi səciyyələndirir. Axırda isə dahi M.Füzulinin İraqda yaşayıb vətən həsrətilə doğma Azərbaycanımıza qürbətdən baxmasını xatırladır və bu ağrı-acı ilə öz faciəsini yan-yanaşı qoyub deyir: "Füzuli Bağdaddan Həsrətlə qürbətdən baxardı vətəninə, mən isə öz doğma vətənimdən vətənimə həsrətlə, qürbət acısı ilə baxıram". Doğrudan da, acı həyat reallığıdır və bu nisgili müəllif həssaslıqla misralarda oxuculara çatdırıb.

Həsən Hüseynovun "Araza xitab" şeiri də "İki vətən" şeirindəki nisgilin başqa bir baxış aspektindən izharıdır:

**Niyə belə lam axırsan, ay Araz**
**Dərdin - qüssən kükrəməyir, daşmayır.**
**Niyə belə lal axırsan, ay Araz,**
**Xəcalətdən yoxsa səsin çıxmayır.**

**Qəm-kədərlə sirdaş oldun nədəndir,**
**Kürüm kimi sən çağlayıb daşmırsan,**
**Sahillərə ərkin çatmır bəlkə də,**
**Dəli Kür tək sahilləri aşmırsan.**

**Kim qarğıdı səni belə, Arazım,**
**Bu işgəncə barmaqlıqçın yaranmış**
**Sən xalqıma nemət kimi verildin,**
**Xalqım isə ancaq həsrət qazanmış.**

**Sən axırsan**
**Həsrət dolu nəzərlərdən**
**Yaxa qurtarmaq üçün.**

**Sən axırsan**
**Dağlardan da ağır dərdi**
**Yuyub aparmaq üçün.**

**Yox, Arazım, axmaqla təsəlli axtarma gəl,**
**Dərddən yaxa qurtarmazsan bununla,**
**Kükrəyib coş, şahə qalxsın hər ləpən,**
**Dənizlər tək səs qoparsın hər damla.**

Əvvəla, qeyd edim ki, Həsən müəllim burada Cəbrayıl camaatının dialektində mövcud olan bir ifadəni dilə-şeirə gətirməklə bu nisgilli duyğulara sanki bir az da həzinlik qatmış olur. Bu, "lam" ifadəsidir: "Niyə belə lam axırsan, ay Araz" deyə Araz çayına üz tutub. Cəbrayıl əhalisinin danışığında bir şeyə, bir hadisəyə təəccüb edib mat-məəttəl baxıb-qalanda deyirlər ki, "mən bu işə mat qalmışam, lam qalmışam". Yəni "lam qalmaq" - səssiz qalmaq, təəccüb içində donub sükut içində qalmaq, baxmaq kimi bir mənaya gəlir. Ona görə də Araza müraciətedir, sanki onu canlı bir insan kimi təşxisləndirir, "niyə belə lam - yəni səssiz - səmirsiz axırsan, dərdin-qüssən niyə səs-küydən kükrəyib-daşmır" - deyə soruşur. Növbəti misralarda isə elə bil ki, Arazın bu susqun - lal görkəminə, sakit axımına özü də Arazın dilindən - Arazın əvəzindən cavab verir: "Niyə belə lal axırsan, ay Araz, yoxsa səni sərhəd suları kimi - araya ayrılıq salan çay kimi böldüklərindən, xəcalət çəkib, səsini içinə salmısan"? Çox duyğusal bir təbiət mənzərəsi canlandırıb burda Həsən müəllim və bu mənzərəyə bədii fon verib ictimai məzmun qazandırıb.

İkinci bənddə isə yenə mütəəssiredici bir dillə "Qəmlə-kədərlə niyə belə sirdaş oldun, Kür kimi çağlayıb - daşa bilmirsən" deyə Araza üz tutur. Sonra isə özü yenə lirik mən olaraq sualı cavablandırır ki, "sahillərə ərkin çatmadığından, Kür kimi şıltaqlıq eləyə bilmirsən, o sahilini - bu sahilini kükrəyib döyəcləyə bilmirsən". Çünki qarı düşmənlər arada səni əsir-yesir eləyiblər, yəni səni günahsız yerə o qardaşla bu qardaşın arasını vuran qanlı tutublar.

3-cü bənddə də "Kim qarğış etdi sənə ki, sən həbsxana "barmaqlığı" kimi ancaq o tərəfdən bu tərəfə, bu tərəfdən o tərəfə həsrətlə baxılan yer kimi oldun. Halbuki "sən xalqıma nemət kimi - bolluq - bərəkət rəmzi olan su (çay) kimi ilahinin bəxşişi idin", - deyir şair Həsən Hüseynov.Şeirin davamında müəllif Araz çayının axmağına maraqlı poetik yozum verib:

"Sən axırsan ki, həsrət dolu nəzərlərdən - baxışlardan yaxanı qurtarıb gedəsən". sən axırsan ki, dağlardan da ağır dərdi yuyub aparasan". Fəqət bu mümkünmü? Buna da sonda təsiredici bir tərzdə belə cavab verir ki, "yox, dərdi-qüssəni sadəcə səssizcə - dərdə çarə qılmadan yuyub-aparmaq mümkünsüzdür. Sən kükrə, coş, hər ləpə elə şahə qalxsın ki, dənizdə fırtına qopan kimi səs-küy, uğultu qopsun. Əslində Həsən Hüseynov sətiraltı mənada buna metaforik dəyər qazandırır: yəni Arazın o sahilindən də, bu sahilindən də insan seli kükrəsin, coşsun, o sahildəkilər bu sahilə, bu sahildəkilər o sahilə axışsın, əsarət zənciri - sərhədi kimi arada qalan Arazın o üzü - bu üzü sərhəd tanımasın, ikiyə bölünmüş vətənimiz birləşsin - "İki vətənli" olmayaq, birləşək, bütöv Azərbaycanı təşkil eləyək. Şair kimi Həsən Hüseynovun aşıladığı ideya bundan ibarətdir.




Gördüyümüz kimi, professor Həsən Hüseynov şeirlərində patriot bir insan kimi ikiyə bölünmüş vətənimizin bütövləşməsi arzusunu car çəkir. Başqa sözlə, özünün vətəndaş harayını qaldırır, bir ziyalı alim kimi də, bir şair olaraq da onu narahat edən vətənin parçalanmaq və ya əsarətdə olmaq faciəsinə etiraz səsini ucaldır.

Onun 2020-ci ildən əvvəl qələmə aldığı "Cəbrayıl etüdləri" mənzuməsində də qaçqınlıq - köçkünlük faciəsinin ağrı-acılarını dilə gətirdiyini görürük.

**Yağı düşmən bənd-bərəni alıbdır,**
**Nankor çıxıb yediyi duz-çörəyə,**
**Ev-eşikdən bizi köçkün salıbdır,**
**Möhtac qoyub hökmü - çərxi-fələyə.**

Bu minvalla Həsən müəllim vətən həsrətli duyğularını bölüşür. "Cəbrayıl həsrəti" adlı digər bir mənzuməsində də yenə eynilə vətən nisgilindən söz açmaqla bərabər "Qələbəyə gücümüz də çatacaq, qüdrətimiz də" şəklində nikbin ruhlu misra ilə şeirini bitirir. Doğrudan da, Həsən müəllimin bu ümidinin gerçək olduğunu tarix də göstərdi və 2020-ci ilin 4 oktyabrında Cəbrayıl şəhəri işğalçılardan azad olundu. Müzəffər Ali Baş Komandanımızın qətiyyətli sərkərdəliyi altında və qəhrəman oğullarımızın şücaəti sayəsində işğalda olan bütün torpaqlarımız yağı əsarətindən xilas edildi. Şairlik Allah vergisidirsə, şeirlərdə səsləndirilən arzu-istəklər isə ilahidən gələn vəhylər kimi gerçəkliyə çevrilən nidalardır!

**Şakir Albalıyev**

**Mahirə Nağıqızı elmi yaradıcılığı ilə dilçilik elmimizə zəngin mənəvi xəzinə bəxş etmiş alimdir. Eyni zamanda onun əlvanlığı ilə seçilən bədii yaradıcılığı da oxucularda özünə böyük rəğbət və sevgi qazandırıb. Alimlərimiz də - akademik Möhsün Nağısoylu, professorlar Həsən Mirzə, Qurban Bayramov, İsmayıl Kazımov, Aynur Sabitova, Təyyar Salamoğlu və başqaları da yeri gəldikcə Mahirə Nağıqızı yaradıcılığından bəhs edib, yüksək dəyərləndiriblər. Mən də bir filoloq kimi Mahirə xanımın bədii yaradıcılığını diqqətlə gözdən keçirdikdə, qarşımda zəngin mənəvi dünya canlandı. İstər poeziya, istərsə də nəsr əsərlərində - bədii yaradıcılığın hər iki istiqamətində sadə və maraqlı üslubda təhkiyəsi ilə adi həyat həqiqətlərini elə əlvanlıqla cilalayıb oxucusuna çatdırır ki, indiyəcən gördüklərini, şahidi olduqlarını təzədən görürmüş kimi olursan. Düşünürəm ki, axı niyə mən bu gördüklərimə, müşahidə elədiklərimə belə qeyri-adi nəzərlərlə yanaşa bilməmişəm. Amma əslində məsələ bir qədər də başqa cürdür: bu, Mahirə Nağıqızının bədii tapıntılarını oxucularına olduqca sadə və anlaşıqlı tərzdə çatdıra bilmək istedadı ilə bağlıdır. Sadəlikdə böyük fikirləri verə bilmək bacarığı hər qələm adamına müyəssər olmur. Belə deyim ki, mən bəzən müasir, çağdaş dövrümüzün elə şeirlərini oxuyuram ki, onların mənasını tam anlamaq üçün az qalıram ki, bir "tərcüməçi" də tutam ki, bu "dili" mənə "tərcümə" (izah) eləsin. Özündən də soruşanda ki, niyə belə qəliz-mürəkkəb yazırsan, deyir ki, mən bunları elitar təbəqə üçün - yəni ali savadlılar, ziyalı mühiti üçün yazmışam. Öz-özümə deyirəm ki, yəqin mənim savadım hələ tam yetişməyib ki, bunları başa düşəm - anlayam. Amma əslində əllaməçilikdir bu cür qəliz - anlaşılmaz üslubda yazmaq. Özü də söhbət bədii əsərlərdən gedirsə - bədii ədəbiyyat bütün xalq kütləsinin düşündüyü, anladığı bir üslubda yazılmalıdır.**




# Mahirə Nağıqızının bədii yaradıcılığı



*Şairə Mahirə xanımın doğma təbiəti təsvir edən misralarını oxuduqca, ana yurdumuzun gözəlliyinə heyranlığımızı gizlədə bilmirik*

Mahirə Nağıqızının bir şair, yazıçı kimi uğuru həm də ondadır ki, "Vaqifin şirin dilində", dahi Səməd Vurğunun şirin üslubunda yazır, bir sözlə, xalq dilinin incəlikləri ilə oxucuları ilə rahat şəkildə səmimi ünsiyyətə girə bilir. Onun bədii yaradıcılığı ilə bağlı belə monoqrafik üslublu kitabımın yazılmasına əsas səbəb də elə əsərlərinin dilindəki səmimilik və bir də zəngin ədəbi materiallar oldu. Belə ki, o, həm nəsr sahəsində, həm də poeziya istiqamətində qələmini məharətlə işlədən yazarlarımızdandır. O, şeirlərində nə qədər dərəcədə lirik-emosional duyğularla çıxış edirsə, hekayələrində də o dərəcdə milli-etnoqrafik dəyərlərimizin alovlu təbliğatçısı kimi çıxış edir. Şair kimi də, yazar kimi də milli-mənəvi dəyərlərimizin yaşadılması yolunda qələmi ilə külüng çalır, soydaşlarımıza milli vətənpərvərlik tərbiyəsi aşılayır.

Mahirə Nağıqızının bədii irsini ədəbi baxımdan çeşidlədikcə, onun yaradıcılıq palitrasının genişliyi aydınca göründü. Rəhmətlik Xalq şairimiz Süleyman Rüstəmin yaradıcılığında Təbriz mövzusu necə ayrıca seçilirdisə, ürəkləri fəth edirdisə, Mahirə xanımın da yazdıqlarında (istər şeirlərində, istərsə də nəsr nümunələrində) Ana mövzusu xüsusi qırmızı xətlə diqqəti çəkir. Bundan başqa, Ana sözüylə ayrılmaz vəhdət təşkil edən Vətən məfhumu, eləcə də milli vətənpərvərlik duyğularının təsviri və tərənnümü də M.Nağıqızı poeziyasının əsas canını, cövhərini təşkil edir.

Mahirə Hüseynovanın qələmində peyzaj - Vətən təbiətinin təsviri və tərənnümü məsələləri də ayrıca yaşıl zolaq təsiri bağışlayır. Elə bilirəm ki, o misraları oxuduqca özün də canlı şəkildə o vətən təbiətini dolaşıb seyrangaha çıxırsan. Qeyd edim ki, vətənimizin ayrılmaz cənnətməkan bir guşəsi olan Qax və Qaxın alimlər kəndi kimi tanınan mənzərəli İlisu kəndinin təsviri-tərənnümü də bu təbiət lövhələrinin təsvirində ayrıca seçilir.

Əlbəttə ki, hər bir mütəfəkkirin, ədibin yaradıcılıq aləmində dünya ilə, həyatla, insanla bağlı bədii-fəlsəfi düşüncələri olur ki, bu kimi amillər Mahirə Nağıqızı yaradıcılığın da kifayət qədər əksini tapıb. Kitabda şairənin yaradıcılığı bu yöndən də diqqətlə araşdırılıb.

Şair-yazıçı Mahirə Hüseynova, hər şeydən əvvəl, həm də müəllimdir., pedaqoqdur, alimdir və Azərbaycan Dövlət Pedaqoji Universitetinin auditoriyalarında tələbələrinə dilimizin incəliklərini aşılayır. Bu nöqteyi-nəzərdən onun yaradıcılıq dünyasında pedaqoji-didaktik dünyagörüşləri də inikasını tapıb. Monoqrafiyada onun maarifçilik ruhlu şeirləri də tədqiqata cəlb olunub. Bədii yaradıcılığının digər bir qolu olan hekayələri barədə də söhbət açılır, şeirlərində olduğu kimi, nəsrində də onun xalq ruhunun daşıyıcısı kimi çıxış etdiyi birbaşa əsərlərinin dili vasitəsilə şərhini tapır.

İnanırıq ki, M.Nağıqızının zəngin və məzmunlu yaradıcılığı ilə bağlı yazılan bu kitab da diqqət çəkəcək və maraqla qarşılanacaqdır.

***

Hər bir insanı (ümumiyyətlə varlığı) dünyaya gətirən bir cismani (müqəddəs) ana var ki, bütün ömrümüz boyu da onun xidmətində dursaq, heç vaxt onun borcundan çıxa bilmərik. Bir də hər bir kəsin qoynunda doğulduğu, pərvəriş tapdığı və ağla-kamala yetişdiyi bir (doğma) torpaq var ki, biz o torpağı da mənəvi ana sayırıq - bu, bizim müqəddəs vətənimizdir. Əbəs deyil ki, biz həmişə vətən kəlməsi ilə ana kəlməsini birgə işlədirik, bu iki müqəddəs varlığı bir-birindən ayrı tutmuruq. Yuxarıdakı torpaq sözünün əvvəlinə mötərizədə bir "doğma" sözünü əbəs yerə əlavə etmədim. Bəli, vətən anlayışının adekvatı kimi doğma torpaq, yəni vətən ifadəsini işlədirik. Bu, o mənaya gəlir ki, bir var insanı cismən doğan (dünyaya gətirən) ana, bir də var insanı mənən doğan - var edən ana torpaq - doğma torpaq (yəni doğulduğun torpaq). Cismani anamıza da, mənəvi anamıza - doğma torpağa, vətənə də müqəddəs duyğular bəsləmişik və hər ikisinə ömrümüz boyu borcluyuq.

*"Anadır hər kişiyə öz vətəni,*
*Bəsləyib sinəsi üstündə onu",*

misralarında da unudulmaz şairimiz Abbas Səhhət bu cür ülvi duyğuları dilə gətirmişdir.

Bu nöqteyi-nəzərdən də şairə Mahirə Nağıqızının yaradıcılığında da Ana mövzusu, Vətən mövzusu mühüm yer tutur. Onun poeziyasında bu iki mühüm amil daha qabarıq şəkildə görünür və kitabın ilk fəslində bu məsələlərə geniş yer ayırdıq. Ancaq bu mövzuların özünü də iki qrupda səciyyələndirə bilərik. Şairə bir qisim şeirlərində Ana və Vətən müqəddəsliyini öyür, vəsf edir. Bu qisim şeir nümunələrində müəllif Ana adlı müqəddəs varlığın, Vətən adlı müqəddəs anlayışın daşıdığı ülvi dəyərləri yetərincə oxucuya aşılayır.

Ana və Vətən uğrunda özünü fəda etmək kimi müqəddəs missiya var ki, bunları ümumi şəkildə biz vətənpərvərlik anlayışı kimi səciyyələndiririk. Bax Mahirə xanımın Vətən, Ana mövzusunda qələmə aldığı ikinci qisim əsərlərində biz artıq vətənpərvərlik duyğularının alovlu tərənnümü ilə rastlaşırıq. Ana, Vətən uğrunda özünü fəda etmək yolunda artıq şəhadətə yetişmək qədər yüksək amallar dayanır ki, bütün bu kimi ülvi duyğuların inikasını, başqa sözlə, patriotizm əhval-ruhiyyəsini biz şairənin yaradıcılığında aydınlığı, parlaqlığı ilə görə bilirik.

***

Dünyadakı 11 iqlim qurşağından 9-u doğma Vətənimiz Azərbaycanımızda var. Təbiət yurdumuza min cür naz-nemət bəxş edib. Bu mənada cənnət Azərbaycandadır və mərhum xalq şairimiz S.Rüstəm "Vətənimin seyrinə çağırıram elləri, cənnət görmək istəyən Azərbaycana gəlsin" misralarında bu həqiqəti car çəkmişdir. Ümumiyyətlə götürdükdə isə bu dünyadakı cənnət məfhumunun qarşılığı əslində elə vətən torpağıdır, vətən təbiətidir. Dünyanın cənnət guşəsini andıran Azərbaycan təbiətinin gözəlliyindən vəcdə gəlməmək, ecazkar təbiət mənzərələrini vəsfə - tərənnümə çəkməmək mümkünsüzdür. Mahirə Nağıqızının da yaradıcılığında təbiət mövzusu, vətən gözəllərinin tərənnümü başlıca yerlərdən birini tutur. Şairə gəzib-dolaşdığı Azərbaycanın cənnətmisal guşələrini sözünün fırçasında əks elətdirmiş, doğma yurdumuzun misilsiz təbiət mənzərələrini şeirlərində dolğunluğu ilə işıqlandırmışdır. Onun vətənimizin dilbər guşələrindən olan Qax torpağı, İlisu kəndinin təbiət mənzərələrilə bağlı şeirləri də ayrıca silsilə təşkil edir. Onun ilhamla qələmə aldığı bu nümunələr oxuculara bədii-estetik zövq aşılayır, bir daha vətənimizin gözəlliklərinin tamaşasına dalmağa və bu gözəlliklərə valeh olmağa səsləyir. Bu cür ülvi duyğular həm də vətənimizin gözəlliklərini sevməyə və bu ulu yurdun qədrini bilməyə poetik çağırış nidalarıdır.

İnsan təbiətlə ruhən bağrıbadaş olanda, özünü təbiətin ayrılmaz bir parçası kimi görür, hiss edir, özünü bu gözəl vətənin övladı bilir və torpaq, təbiət, vətən sevgisi ruhuna, varlığına hakim kəsilir. Yazarların Ana təbiəti, vətən gözəlliklərini vəsfə-tərənnümə çəkməklərinin mayasında da əslində vətən məhəbbəti dayanır. Şairə Mahirə xanımın da doğma təbiəti təsvir edən misralarını oxuduqca, ana yurdumuzun gözəlliyinə heyranlığımızı gizlədə bilmirik. Bu mənada onun bu tipli əsərlərindən də oxuculara təbiət, vətən sevgisi duyğuları aşılanır.

Qələm adamlarını təbiətlə bərabər ictimai problemlər də daima narahat edib, düşündürmüş və onlar öz yaradıcılıqlarında dünyaya münasibətdə həyat və insan məsələlərinə də müraciət etmişlər. Bu baxımdan M.Nağıqızının yaradıcılığında da bu məsələlər özünün parlaq təcəssümünü tapmışdır. Dünyanın yaranışı haqda mifik-dini rəvayətlər, insanın bu dünyaya gəlişi, həyatdakı missiyasının nədən ibarət olması və s.-lə bağlı düşüncə və qənaətlərə biz onun poeziyasında geninə-boluna rast gəlirik - İnsan (Azərbaycan insanı) dünyaya gəlişindən gedişinə qədər lirik duyğularla əzizlənilir - oxşanılır, layla və bayatılarla doğulur, böyüyür, nəfəs alır, yaşayır və ağılarla, elegiyalarla da dövran sürmüş olduğu bu dünyadan axirət evinə - o biri dünyaya yola salınır. Mahirə xanımın ayrı-ayrı şeirlərində, o cümlədən laylalarında, bayatı və oxşamalarında bu kimi məsələlər öz bədii həllini tapıb. Oxucular dünya ilə, həyatın gedişatı ilə bağlı, insanları düşündürən, insanlığa yaraşan əməllərlə bağlı poetik-fəlsəfi qənaətlərini onun yaradıcılığından izləyə bilərlər. Məhz buna görə də kitabın 2-ci fəslində müəllifin bu yöndə əsərləri ədəbi təhlil süzgəcindən keçirilib, ayrı-ayrı nümunələrin timsalında izahını tapmışdır.

***

Mahirə Nağıqızı ixtisasca pedaqoqdur, dilçidir. Yəni onun vəzifəsi müəllim kimi də, alim kimi də öyrətməkdən ibarətdir. Elə ədəbiyyatın, poeziyanın da başlıca qayəsi öyrətmək, insan tərbiyə etməklə bağlıdır. Bu baxımdan Mahirə xanımın şeirlərində didaktik ruhlu nümunələr, pedaqoji yönümlü öyrədici əsərlər də ayrıca yer tutur. Onun dilçilik elmi ilə bağlı, qrammatika bəhsi ilə əlaqəli şeirləri diqqəti çəkir. Nitq hissələri ilə, cümlə bəhsi ilə bağlı və s. bu kimi mövzularda yazdığı şeirləri monoqrafiyanın 3-cü fəslində təhlilə çəkilmişdir. Həmçinin bu kimi ədəbi nümunələrdə yalnız sırf dilçilik ixtisası ilə əlaqəli mövzular sadəcə nəzmə çəkilmir, eyni zamanda poeziyanın tələbləri çərçivəsində bu dilçilik terminlərindən ədəbi-metaforik vasitə kimi bəhrələnir, söz içində söz deyilir. Bu da müəllifin tədrislə həyati məsələləri əlaqələndirə bilmək istedadının göstəricisidir. Bundan başqa, Mahirə xanımın poeziyasında tərbiyəvi - didaktik ruhlu ədəbi nümunələr də diqqəti çəkir və kitabda bu kimi məsələlər də təhlilə cəlb olunmuşdur.

Mahirə Nağıqızının nəsr əsərləri də həyatın içindən gəlir. Folklor - etnoqrafik yönlü ədəbi materiallar onun hekayələrinin bətnində kifayət qədərdir. Kitabın 3-cü fəslində müəllifin hekayələrinin əsas ideya-tərbiyəvi xüsusiyyətləri də ədəbi təhlil müstəvisinə gətirilmişdir.

Başqa sözlə, M.Nağızıqının istər şeir yaradıcılığı, istərsə də nəsr əsərləri bilavasitə xalq həyatının bədii-ədəbi tərcümanı olaraq oxucu dünyasına yol açır, oxucu ilə müəllif arasında birbaşa rabitəni təmin edir ki, bu kimi detallara da əsərdə qədərincə toxunulur.

***

"Mahirə Nağıqızının bədii yaradıcılığı" mövzusunda tədqiqatımızı 3 fəsil ətrafında ümumiləşdirdik. İlk fəsli "Mahirə Nağıqızı poeziyasında ana, vətən müqəddəsliyi və vətənpərvərlik duyğularının tərənnümü" adı ilə araşdırdıq. Ona görə ki, şairənin şeirlərində (və hətta kitablarının bir neçəsinin adında belə) müqəddəs Ana kəlməsi və Ana anlayışı ilə bağlı silsilə nümunələr vardır. Bu da, hər şeydən öncə övlad - Ana bağlılığından doğan təbii duyğunun daha parlaq şəkildə əsərlərin ruhuna köçürülməsi ilə bağlıdır. Doğrudan da, biz bu tipli nümunələri gözdən keçirdikcə, saat əqrəblər üzərində hərəkət etdikcə fəaliyyət göstərdiyi kimi, şairənin də gecəbəgündüz dilində Ana kəlməsi ilə nəfəs alıb yaşadığının fərqində olduq və müəllif bu ülvi, munis duyğularını təkcə özünün simasında yox, bütün oxucularının ürək döyüntülərində yaşayan müqəddəs bir əks-səda olaraq təqdim etməyə nail olur.

M.Nağıqızının şeirlərində Ana müqəddəsliyi ilə paralel şəkildə Vətən müqəddəsliyi də təsvir-tərənnüm obyektidir. Misal üçün, "Onun daş nağılı" mənzuməsində biz müqəddəs Ana obrazı ilə ailə və vətən müqəddəsliyini iç-içə, qovuşuq halda oxuyuruq, bu müqəddəs məfhumlar burada bütöv, ayrılmaz vəhdət təşkil edir.

Müqəddəs olanın uğrunda insanlar özlərini fəda (həlak-şəhid) edərlər. Bu mənada Mahirə xanımın şeirlərində min bir məhəbbətlə söz açdığı vətənimizin uğrunda canlarını fəda edən şəhidlərimiz, qələbə ruhlu örnəklər də silsilə təşkil edir. "Xocalı faciəsi", "Şəhid nəğməsi", "Al bayrağım" və s. şeir nümunələri üzərində bu mövzu ilə bağlı təhlillər aparılmışdır.

Monoqrafiyanın 2-ci fəsli şairənin Vətən gözəlliyi, təbiət mövzulu şeirləri, habelə dünya, həyat, insan mövzusu üzərində fəlsəfi düşüncələri üzərində qurulmuşdur. Müəllifin təbiət lövhələri timsalında Qaxın, İlisunun gözəlliyini vəzifə - tərənnümə çəkən şeirləri xüsusilə təhlil obyekti kimi nəzərdən keçirilmişdir. Eyni zamanda şairənin layla, bayatı və oxşama yaradıcılığı da diqqətdə saxlanılmış, müəllifin həyat, dünya mövzusu ilə bağlı şeirləri ətraflı şərh olunmuşdur.

Tədqiqatın 3-cü fəslində M.Nağıqızının pedaqoji-didaktik məzmunlu poeziya nümunələri və nəsr əsərləri təhlilə çəkilmişdir. Müəlifin dilçiliklə bağlı elmi-pedaqoji düşüncələrinin burada bədii məzmun aldığı, didaktik səciyyə daşıdığı göstərilmişdir.

Sonda isə M.Nağıqızının hekayələri ədəbi təhlil müstəvisinə gətirilmiş, bu nəsr nümunələrində xalq həyatının etnoqrafik səciyyəsinin əks olunduğu, ailə-məişət lövhələrinin bədiiliklə inikasını tapdığı əsaslandırılmışdır. Ümumilikdə isə M.Nağıqızının bədii yaradıcılığının ideya-tərbiyəvi əhəmiyyəti, bu əsərlərdə milli-mənəvi dəyərlərin, xalq ruhunun daşındığı kimi məsələlər ətraflı şəkildə şərhini tapmışdır.



Şakir Əlifoğlu,
Filologiya üzrə fəlsəfə doktoru, dosent

**“Kitabi-Dədə Qorqud” dastanında deyilir ki, “oğul atanın yetiridir, iki gözünün biridir”. Doğrudan da, atalar həmişə oğullarını gözlərinə çıraq edərlər, ona özünün arzularının davamçısı kimi ümid bəsləyərlər. Elə bizim İqrar Fazil oğlu Həsənov kimi. İqrar 10 aprel 1971-ci ildə Cəbrayıl rayonunun Aşağı Maralyan kəndində anadan olub. 1978-1988-ci illərdə Aşağı Maralyan kənd orta məktəbində oxuyub. Orta məktəb illərində o, Cəbrayıl şəhər musiqi məktəbində tar sinfində oxuyub. Əhrar müəllimin şagirdi olub. Bundan başqa, İqrar uşaq vaxtlarından hətta bir neçə dəfə valideynlərindən xəbərsiz olaraq kəndlərindən rayon mərkəzinə qədər olan 25 km-lik yolu qət edib, güləşlə də məşğul olub.**





# Boks təkcə idman deyil, həm də fəlsəfədir

*“Özümün həyata keçirə bilmədiklərimi inşallah ki, oğlum yerinə gətirəcəkdir”, - deyən İqrar Həsənovun arzu və ümidlərinə biz də qoşulur, Malikə bu arzu və ümidləri gerçəkləşdirməsi yollarında uğurlar arzulayırıq!*

İqrarın dayısı və özündən yaşca xeyli böyük olan qardaşları Mingəçevirə köçüb orada yaşadıqlarından, o da orta məktəbi bitirdikdən sonra Mingəçevirə gəlib, burada rəngsazlıq ixtisası üzrə peşə təhsili alır. İqrar sözarası onu da qeyd etdi ki, atası, qardaşları - hamısı rəngsazdırlar, rəssamdırlar, evlərin təmiri işlərində bu sənət onların karına gəlir, zahiri bəzək-düzək işlərini də onlar özləri görürlər.







İqrar Həsənov 1989-1991-ci illərdə Rusiyanın İrkutsk və Çita vilayətlərində raket qoşunlarında ikiillik hərbi xidmətdə olarkən də, boksla məşğul olur, burada bir kursantdan boksun sirlərini öyrənir.

Onu da əlavə edim ki, o, hələ Mingəçevirdə olarkən, idmanın karate növü ilə də məşğul olub. Hərbi xidməti bitirib doğma Azərbaycana qayıdır, 1991-ci ildə Mingəçevirə gəlir, 1 illik buxqalteriya kursunu oxuyur, yenidən işləmək üçün doğma kəndlərinə dönür. Ancaq bu, o dövr idi ki, azğın düşmənlər torpaqlarımıza diş qıcamışdılar. Sovet ordusunda hava qoşunları sahəsində xidmət keçməsi onu bir hərbçi kimi torpaqlarımızın müdafiəsinə qalxmağa sövq edir. Könüllü olaraq 722 saylı Cəbrayıl özünümüdafiə batalyonuna yazılır, tağım komandiri kimi Quşçularda, Meşə postu deyilən ərazidə avtomatı, pulemyotu ilə vətən keşiyində ayıq-sayıq dayanır.

Arxalı köpək qurd basar deyiblər. Mənfur düşmənlərimiz öz havadarlarına arxalanaraq 1993-cü ilin avqustunda doğma Cəbrayılımızı, ardınca isə kəndlərimizi işğal etdilər. İqrargilin ailəsi Araz çayını İrana adlayıb keçməklə düşmən caynağından xilas olur. 1993-cü ilin oktyabrında yenidən Mingəçevir şəhərinə pənah gətirirlər. İqrar Mingəçevirdə yenidən idmanla məşğul olur, boksçuluq üzrə Rəşid Məmmədovun tələbəsi kimi yetişir. 1996-cı ildə boks üzrə idman ustalığına namizəd adını alır.



Söhbətimiz əsnasında İqrar Həsənov onu da bildirdi ki, idmanın güləş, karate növləri ilə məşğul olsa da, onu ən çox boks növü özünə çəkib. Çünki boks sadəcə idman növü deyil, boks sanki ikinci şahmatdır idman aləmində. Çünki rəqiblə rinqə çıxarkən, bokslaşarkən onun sənə yetirəcəyi növbəti, yəni 3-cü, 4-cü, 5-ci zərbələrin necə gələcəyini düşünə bilməsən və ona qarşı çevik əks-hücum fəndi işlətməsən, uduzacaqsan. Bu nöqteyi-nəzərdən yanaşdıqda, boksun təkcə idman deyil, həm də fəlsəfə olduğunu yəqinləşdirirsən. Boksun fəlsəfəsini bilməsən döyüşdə uduzacaqsan.







İqrar 1995-ci ildə ailə həyatı qurub, 1996-cı ildə qızı Gülnar, 1998-ci ilin 30 aprelində oğlu Malik, 2004-cü ildə isə oğlu Xaliq dünyaya gəlib (Elə buradaca qeyd edim ki, oğlu Xaliq Laçında xidmət keçib və bu zaman bir əsgər kimi komandir və əsgər heyətinin böyük etimadını qazanıb).

İqrar söhbətimizin bu anından sonra diqqəti onun məşqçiliyi altında boksçu kimi yetişib formalaşan oğlu Malikin üzərinə gətirdi. Dedi ki, həmişə arzum olub ki, evlənsəm, oğlum olsa, onu boksçu kimi yetişdirəcəyəm. İndi şükürlər olsun ki, bu arzum öz bəhrəsini verməkdədir. Elə ki, Malik gəlib 4-5 yaşa çatdı, başladım onunla məşğul olmağa.

Söhbətimizin bu məqamında İqrar müəllim yenə bir haşiyə çıxdı ki, bəs Malikin yaxşı səsi də vardı. Astarada keçirilən 5-ci uşaq muğam festivalında qaliblərdən biri də Malik oldu. Malikin yaxşı səsini görən Şahnaz Haşımova onu Gəncəyə dəvət etdi. Buna görə də 2011-ci ilin yanvar ayında Gəncəyə köçdük, 2013-cü ildə Gəncədəki musiqi məktəbini bitirənədək biz orada yaşadıq.



2011-ci ildə Xan Şuşinskinin 110 illik yubileyilə bağlı keçirilən konsertdə Malik yaxşı oxuduğuna görə səsi qızıl fonda daxil edildi. Lakin Malik musiqi təhsili alsa da, idman aləmindən ayrılmaq istəmir, həyatını boksa bağlayır. Beləcə, Malik İqrar oğlu Həsənov Balakəndə keçirilən respublika çempionatında ölkə çempionu olur, ardınca 2-ci dəfə, 3-cü dəfə, 4- cü dəfə yenə Azərbaycan çempionu tituluna sahib çıxır.

2012-ci ildə Rusiyanın Anapa şəhərində Avropa çempionu olan Malik ölkə prezidentinin müvafiq Sərəncamı ilə imtahansız İdman Akademiyasına qəbul hüququ qazanır və 2015-ci ildə İdman Akademiyasına qəbul olur. 2019-cu ildə Akademiyanı bitirir və Keşlədəki Daxili Qoşunların tərkibində idman rotasında qulluq edir. Malik boks karyerası ərzində keçirdiyi yarışlarda dəfələrlə erməni idmançıları məğlub edib.

Onu da qeyd edim ki, boks üzrə Avropa çempionatında 12 il Azərbaycanın medal qazana bilmədiyi uzun fasilədən sonra 2024-cü ildə Serbiyanın Belqrad şəhərində keçirilən Avropa çempionatında Malik Həsənov Avropa mükafatçısı kimi ölkəmizə bürünc medal qazandırdı. Eyni zamanda olimpiadaya da lisenziya qazandı. Malik bu yarışlarda Yaponiyadan olan dünya çempionunu, Polşa, Cənubi Koreya və Kolumbiya təmsilçilərini məğlub etmişdi. Lakin təəssüflə demək lazımdır ki, bəzən idman aləmində də haqsızlıqlar olur və hakim ədalətsizliyi ucbatından Malik olimpiadanı medalsız başa vurdu. Onu da əlavə edək ki, olimpiadaya düşə bilmək özü elə idman aləmində böyük uğura imza atmaq deməkdir.

2024-cü ilin dekabrında 5-ci dəfə Azərbaycan çempionu, həmçinin Monteneqroda Avropa kubokunun finalçısı olan Malik İqrar oğlu Həsənovu qarşıda hələ çox yarışlar, qələbələr gözləyir. Noyabrın 13-də Polşaya beynəlxalq turnirə yollanacaq, gələn ay isə Abu-Dabidə kişilər arasında keçirilən dünya çempionatında iştirak edəcək. Qələbələr səninlə olsun, Malik!

“Özümün həyata keçirə bilmədiklərimi inşallah ki, oğlum yerinə gətirəcəkdir”, - deyən İqrar Həsənovun arzu və ümidlərinə biz də qoşulur, Malikə bu arzu və ümidləri gerçəkləşdirməsi yollarında uğurlar arzulayırıq!

**Şakir ALBALIYEV**

# Mahirə Nağıqızına həsr edilmiş monoqrafik əsər

**Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun "Mifologiya" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Şakir Əlif oğlu Albalıyevin "Mahirə Nağıqızının bədii yaradıcılığı" mövzusunda monoqrafiyası nəşr edilmişdir (Bakı: ADPU nəşr., 2025, 288 s.). Monoqrafiyanın elmi redaktoru akademik Nizami Cəfərov, rəyçiləri akademik Muxtar İmanov və filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoydur.**

**Azərbaycanın görkəmli filoloq alimi, filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü, tanınmış şairə Mahirə Nağı qızı Hüseynovanın (Mahirə Nağıqızı) bədii yaradıcılığının əhatəli təhlil edildiyi kitab üç fəsildən ibarətdir.**

**M.Nağıqızının zəngin və məzmunlu yaradıcılığının müxtəlif mövzuları, o cümlədən Vətən müqəddəsliyi, vətənpərvərlik hissləri, ana təbiətin gözəlliyi, dünya, həyat haqqındakı düşüncələrinin şərh edildiyi monoqrafiya geniş oxucu kütləsi üçün nəzərdə tutulub.**

***




AMEA Folklor İnstitutunun mifologiya şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Şakir Albalıyevin bu günlərdə sayca 12-ci kitabı işıq üzü görüb. Kitab filologiya elmləri doktoru, professor, ADPU-nun müəllimi Mahirə Nağıqızı Hüseynovanın poeziya və nəsr-hekayə yaradıcılığının tədqiqinə həsr olunub. ADPU nəşriyyatında nəşr olunmuş "Mahirə Nağıqızının bədii yaradıcılığı" adlı bu monoqrafiya ön söz, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Kitabın girişində müəllif kitabın yazılma səbəblərinə, aktuallığına nəzər salır, əhəmiyyətindən söhbət açır.

"Mahirə Nağıqızı poeziyasında ana, vətən müqəddəsliyi və vətənpərvərlik duyğularının tərənnümü" adlı 1-ci fəsildə Şakir Albalıyev şairənin yaradıcılığında Ana ilə, vətənlə bağlı nümunələrin əsas yer tutmasına toxunur və qeyd edir ki, onun əsərlərində bu iki amil daha qabarıq şəkildə özünü göstərir. Məhz buna əsasən də bu fəsildə alim Ana, vətən və vətənpərvərlik mövzusu ilə bağlı şeirləri təhlil aparatından keçirir, müasir dövrdə bu cür ülvi duyğuların gənc nəslə aşılanmasında xüsusi əhəmiyyətini diqqətə çəkir. "Mahirə Nağıqızının Ana abidəsi", "Analı dünyam sorağında ", "Nazlı ana obrazının poetik təcəssümü" və s. adlar altında verdiyi paraqraflar altında şairənin yaradıcılığını şərh edir.

Şakir Albalıyev monoqrafiyanın 2-ci fəslini "Poeziyada təbiət mövzusu, vətən gözəlliyinin təcəssümü. Dünya, həyat və insan haqqında fəlsəfi-poetik düşüncələr" adı altında təqdim edir. Bu bölmədə isə müəllif şairə M. Nağıqızının təbiət və vətən gözəlliyini vəsf elədiyi poetik örnəkləri təhlil müstəvisinə gətirir. Habelə şairənin dünyanın yaranışı, həyatla bağlı, eləcə də insan obrazına verdiyi poetik dəyərlə bağlı ədəbi-fəlsəfi fikirlərini şərh edir.

Monoqrafiyanın 3-cü fəsli "Pedaqoji-didaktik səciyyəli şeirlər və xalq həyatını əks etdirən hekayələr" adlanır. Burada tədqiqatçı M.Nağıqızının şeirləri ilə yanaşı nəsrini - hekayə yaradıcılığını da tədqiqata cəlb edir. Müəllifin poeziyası ilə yanaşı hekayələrinin də milli vətənpərvərlik duyğuları ilə yükləndiyini, xalq həyatının etnoqrafik lövhələrini təsvirdə canlandırdığını diqqətdə saxlayır.

"Nitq hissələri və əvəzlik mövzuları poeziya qanadlarında", "Cümlə və işarələrin fəlsəfi poetikası", "Şeirdə və nəsrdə xalq bayramlarının təsviri", "Ailə-məişət lövhələrinin etnoqrafik təqdimi" və başqa paraqraflarda Mahirə xanımın yaradıcılığındakı pedaqoji-didaktik motivlər və hekayələrinin mövzu qaynağı ətraflı şəkildə araşdırılır.

Mahirə Nağıqızının bədii yaradıcılığını geniş şəkildə əhatə eləyən monoqrafiyanın böyük maraqla qarşılanacağına və sevilə-sevilə oxunacağına inanırıq.

**Aygün Məmmədova,**
**tarix üzrə fəlsəfə doktoru**

# Həmyerlimizin kitabları fars dilində işıq üzü görüb









**Döyüşçü - yazar, baş-leytenant Mehman Həsən oğlu Hüseynovun 1-ci Qarabağ müharibəsindəki xatirələri əsasında qələmə aldığı "Qanlı döyüşlərin canlı şahidləri" və "Döyüşdən sonrakı döyüş" kitabları 2025-ci ildə Təbrizdə "Aydın Xəzər" nəşriyyatında fars dilində işıq üzü görüb.**

Kitabları fars dilinə Zəncan şəhərindən olan soydaşımız Səhra Vəli qızı Rzayi tərcümə edib.

Mehman Hüseynovu bu uğurları münasibətilə təbrik edir, cansağlığı və yeni-yeni nailiyyətlər arzulayırıq! Tərcüməçiyə də güneyli soydaşlarımıza və farsdilli ictimaiyyətə tariximizin bir parçasını aks etdirən bu kitabları nəşr və tərcümə etdirib çatdırdığına görə minnətdarlığımızı bildiririk!

**ƏLİFOĞLU**

# Bizi təbrik edirlər

## "Ulu Xudafərin" qəzeti nəşrə başlayıb




**1932-ci ildən Cəbrayıl RİH-nin mətbu orqanı kimi "Lenin bayrağı" qəzeti nəşr olunmağa başladı. 1960-cı illərdə qəzetin adı dəyişdirilib "Kolxozçu", 1990-cı illərin əvvəllərindən isə "Xudafərin" adı ilə işıq üzü görməyə başladı.**

Ölkə başçısının müvafiq Sərəncamı ilə rayon İcra Hakimiyyətlərinin tabeliyində olan qəzetlərin fəaliyyəti dayandırıldı. 17 il "Xudafərin" qəzetinin baş redaktoru kimi fəaliyyət göstərən Şakir Albalıyev doğma oxucuları ilə rabitəni davam etdirmək məqsədilə bu yaxınlarda "Ulu Xudafərin" adlı qəzet təsis etdi. Avqustun 29-da qəzetin ilk sayı işıq üzü gördü. Cəbrayıl rayonunun ictimai-siyasi, ədəbi-mədəni həyatından bəhs edən yazılarla oxucuların görüşünə gəldi. Bu münasibətlə jurnalist həmkarımızı təbrik edir, uğurlar arzulayırıq. İnanırıq ki, qəzetçiliyin texnologiyasına və ənənələrinə yaxından bələd olan Şakir Albalıyev baş redaktor kimi, oxucuları ilə vaxtaşırı görüşə gələcəkdir. Uğurlar olsun!

*"Kredo" qəzeti, №26 (1282), 25 sentyabr 2025*

## "Ulu Xudafərin" qəzeti işıq üzü görüb

***Şakir Albalıyev 2002-ci ildən "Xudafərin" qəzetinin baş redaktor müavini, 2009-cu ilin yanvarından isə baş redaktor kimi fəaliyyət göstərib. Qeyd edək ki, "Xudafərin" qəzeti 1932-ci ildən Cəbrayıl RİH-nin orqanı kimi "Lenin bayrağı", 1960-cı illərdən 1990-cı illərə kimi isə "Kolxozçu" adları ilə nəşr olunub.***

Müəyyən səbəblərə görə "Xudafərin" qəzeti fəaliyyətini dayandırdığından, qəzetin baş redaktorunun təşəbbüsü ilə "Ulu Xudafərin" qəzeti işıq üzü görüb. Cəbrayıl rayonunun ictimai-siyasi, ədəbi-mədəni həyatından bəhs edən yazılarla oxucuların görüşünə gələn "Ulu Xudafərin" qəzetinin qədəmləri uğurlu olsun!

*"Bütöv Azərbaycan" qəzeti, №21 (570), 10 oktyabr 2025*

## "Ulu Xudafərin" qəzeti fəaliyyətə başlayıb

Filologiya üzrə fəlsəfə doktoru, dosent Şakir Albalıyevin təsisçiliyi və baş redaktorluğu ilə "Ulu Xudafərin" qəzeti fəaliyyətə başlayıb. Qəzetin səhifələrində Cəbrayıl rayonunun ictimai-siyasi həyatında baş verən hadisələr, ədəbi-mədəni tədbirlər özünə yer alıb. İnanırıq ki, qəzet müntəzəm şəkildə maraqlı ədəbi-publisistik yazıları ilə oxucuların görüşünə gələrək, oxucuların könül dünyasında özünə yer tapacaqdır.

**Uğurlar arzulayırıq!**

*"Yeni təfəkkür" qəzeti, №19 (686), 10 oktyabr 2025*

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Ulu Xudafərin" qəzeti

**İbrahimov Rəşid Hüseyn oğlu, Hacıyev Elbrus Abış oğlu, Şıxıyev Rasim Qurban oğlu, Səfiyeva Rəhilə Seyfəddin qızı, Əsgərova Məryəm İsaq qızı, Cəbrayılova Töhfə Misirxan qızı, Yusifova Afaq Yusif qızı, İbadova Ərkinaz Qədir qızı və Quliyeva Rübabə Səxavət qızının** vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Təsisçi və baş redaktor:
Şakir Əlif oğlu
ALBALIYEV

Qəzet Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində qeydə alınıb. Şəhadətnamə №B71A40FEB25945
CİF 1209641
H/h:55233080000
kod: 200123
VÖEN: 3103823792
SWIFT kod: AIIBAZ2X
M/h: AZ37NABZ01350100000000001944
Benefisiarın hesabı: AZ83AIIB410400C9445674829103
Ünvan: AZ 1073, Bakı şəh., Mətbuat prospekti, 529-cu məhəllə "Azərbaycan" nəşriyyatı.
Telefon: (051) 441-15-82; (010) 712-36-97

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Qəzet "Ulu Xudafərin" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
albaliyevshakir@gmail.com
albaliyevshakir@rambler.ru
Sifariş №: 2279
Tiraj: 2000